QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 090 (5810) **18 may** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# "Azərbaycan beynəlxalq təşkilatlarda müsəlman ölkələrini daim dəstəkləyir"

*Prezident İlham Əliyev müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib*

Səh 2




4

**Əli Həsənov: "Biz regional əməkdaşlığı dərinləşdirəcək, genişləndirəcək və inkişaf etdirəcəyik"**



5

**Əli Əhmədov: "Azərbaycan dünyada ən çox islahat aparan ölkələrdən biridir"**




4

**"Ölkəmizə qarşı çirkin kampaniya aparanların cavabını verməliyik"**



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

18 may 2019-cu il

# "Azərbaycan beynəlxalq təşkilatlarda müsəlman ölkələrini daim dəstəkləyir"

## *Prezident İlham Əliyev müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib*



Mayın 17-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında diqqətə çatdırıb ki, müsəlman ölkələri ilə ölkəmiz arasında çox sıx əməkdaşlıq var. Siyasi sahədə fəal dialoq aparılır:

"Əlbəttə, çox istərdik ki, iqtisadi sahədə daha da fəal əməkdaşlıq olsun. Ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu, digər sahələrdə birgə fəaliyyətimiz xalqlarımız üçün çox böyük əhəmiyyət kəsb edə bilər. Müsəlman ölkələrinin rəhbərləri ilə çoxsaylı görüşlərimdə bu məsələlər daim gündəlikdədir. Əlbəttə, biz çox istərdik ki, təmsil etdiyiniz ölkələrdən olan şirkətlər Azərbaycanda müxtəlif layihələrdə daha fəal iştirak etsinlər.

Bildiyiniz kimi, son vaxtlar Azərbaycanda turizmin inkişafı sürətlə gedir. Çox şadam ki, müsəlman ölkələrindən olan turistlər Azərbaycana gəlirlər və onların sayı ildən-ilə artır. Bir sözlə, ikitərəfli formatda əlaqələrimiz uğurla inkişaf edir. Bu əlaqələrin gələcək inkişafı üçün çox yaxşı şərait və imkanlar var.

Biz beynəlxalq təşkilatlar çərçivəsində də çox fəal əməkdaşlıq edirik, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında bir-birimizə qarşılıqlı dəstək göstəririk. Bu qarşılıqlı dəstək bizim əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürüdür. Xüsusilə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müsəlman ölkələrinin dəstəyi bizim üçün çox əhəmiyyətlidir. Bildiyiniz kimi, Ermənistan Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağı və onun ətrafında yerləşən 7 rayonu uzun illərdir işğal altında saxlayır. Bu münaqişə və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Bu, beynəlxalq hüququn pozulmasıdır. Baxmayaraq, beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı müxtəlif qərar və qətnamələr qəbul etmişlər, əfsuslar olsun ki, işğalçı dövlətə lazımi təzyiqi göstərmirlər. BMT Təhlükəsizlik Şurası - dünyanın ali orqanı 4 qətnamə qəbul edib və bu qətnamələrdə göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Ancaq bu qətnamələr kağız üzərində qalıb və bu, ikili standartların təzahürüdür. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır və Azərbaycanın ərazi bütövlüyü tam beynəlxalq dəstək alıbdır. Ancaq işğalçıya kifayət qədər təzyiq göstərilmir. Münaqişənin həlli ilə bağlı ölkəmizin mövqeyi birmənalıdır. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Beynəlxalq təşkilatlarda bizə göstərilən dəstəyə görə müsəlman ölkələrinə bir daha təşəkkürümü bildirirəm.

Azərbaycan da öz növbəsində, beynəlxalq təşkilatlarda müsəlman ölkələrini daim dəstəkləyir. Bildiyiniz kimi, biz İslam həmrəyliyinin gücləndirilməsinə çox böyük əhəmiyyət veririk və bu istiqamətdə əməli addımlar atılır. Azərbaycanda keçirilmiş çoxsaylı tədbirlər İslam həmrəyliyinin möhkəmləndirilməsinə xidmət göstərir. Biz hamımız yaxşı bilirik ki, İslam həmrəyliyinin möhkəmlənməsi gündəlikdə duran əsas məsələlərdən biridir. Azərbaycan öz tərəfindən bu istiqamətdə çox ciddi addımlar atır və atacaqdır."

Dövlət başçısı qeyd edib ki, ölkəmizdə mədəniyyətlərarası dialoqla bağlı çoxsaylı tədbirlər keçirilir. Bu yaxınlarda Bakıda keçirilmiş V Mədəniyyətlərarası Dialoq Forumu da bu sıradan olan tədbirlərdəndir:

"Onu da bildirməliyəm ki, Azərbaycan İslam mədəniyyətini dünyada təbliğ etməklə bağlı çox böyük səylər göstərir. Bir çox ölkələrdə konfranslar, sərgilər, təqdimatlar keçirilir və beləliklə, biz İslamı dünyaya sülh, mərhəmət dini kimi təqdim edirik.

Keçən il Naxçıvan - bizim qədim şəhərimiz İslam Mədəniyyətinin Paytaxtı elan edilmişdir. Bu qərara görə biz bütün müsəlman ölkələrinə minnətdarıq. Onu da qeyd etməliyəm ki, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın İslam həmrəyliyinin möhkəmlənməsində oynadığı rolu çox yüksək qiymətləndirir. Mən bir daha sizi ürəkdən salamlayıram. Bir daha xahiş edirəm ki, mənim səmimi salamlarımı dövlət-hökumət başçılarına çatdırasınız. Təmsil etdiyiniz ölkələrin xalqlarına sülh, əmin-amanlıq və xoşbəxtlik arzulayıram."

Sonra Fələstin Dövlətinin Azərbaycan Respublikasındakı səfiri Nasir Əbdül Kərim Əbdül Rəhim çıxış edib. O qeyd edib ki, bu müqəddəs ayda müsəlmanlara sülh, həmrəylik ab-havasında bir araya gəlmək imkanı verilməklə İslamın xeyirxah dəyərlərinə çağırış edilir, fikir və ruh yüksəlir və bununla da sakitlik, sabitlik, mənəvi yüksəliş və xeyirxahlığa doğru birlikdə addım atılır: "Beləliklə, hər birimizin içində zəiflərə və aztəminatlılara yardım etmək, qardaşlıqda və ortaq taledən agah olaraq bağışlamaq və qəbul etmək xüsusiyyəti oyanır.

Cənab Prezident, nisbətən gənc Azərbaycan Respublikası müstəqilliyin ilk illərində bir çox çağırışlarla üzləşmişdir və o zaman onların öhdəsindən gəlmək qeyri-mümkün görünürdü. Lakin, ölkə rəhbərliyinin müdrikliyi və uzaqgörənliyi sayəsində Azərbaycan bu təhlükələrin öhdəsindən uğurla gələrək inkişaf etmiş, müasirliyi qəbul edən və gələcəyə doğru sürətlə addımlayan bir ölkəyə çevrilə bilmişdir. Eyni zamanda, qürur hissi ilə öz qədim İslam irsini və mədəniyyətini də qoruya bilmişdir.

Müsəlman ölkələrinin səfirləri kimi biz, qardaş Azərbaycanın möhtəşəm inkişafını, yenidən qurulmasını, bir çox sahələrdə apardığı islahatlarını və uğurlu transformasiyasını heyranlıqla müşahidə etmişik.

Müsəlman ümməsinin əziz, ayrılmaz və vacib bir üzvü kimi, Azərbaycan müsəlman aləminin Dağlıq Qarabağdan tutmuş Əl-Qüds, Əl-Şərif, Kəşmirə qədər və digər işğal olunmuş müsəlman əraziləri ilə bağlı məsələlərdə ədalətli haqq işini böyük səylə dəstəkləmiş, habelə bu günün çoxsaylı çağırışları ilə mübarizədə birgə səylərin önündə olmuşdur. Bunlardan biri də məkrli və yanlış məfhum olan islamofobiya ilə mübarizə aparmaqdır.

Azərbaycanın sülhün, inklüzivliyin və hörmətin üstünlük təşkil etdiyi, müxtəlif dinlərin nümayəndələrinin bir-biri ilə harmoniya içində yaşayıb-çalışması ilə İslamın həqiqi ruhunu nümayiş etdirən parlaq ulduzlardan biri olması danılmazdır. Bunu müşahidə etmək zövq verir. Beləliklə, dünyanın müxtəlif guşələrindən olan qonaqlar çox müsbət təəssüratlarla öz evlərinə qayıdır, Azərbaycan və İslam haqqında məlumatlar onların yaddaşına həkk olunur."

Sonda xatirə şəkli çəkdirildi.



# Azərbaycanda idmanın inkişafına böyük qayğı göstərilir

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti ilə görüşüblər*



Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında idman sahəsində əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə İrina Aleksandrovna Viner-Usmanova Prezident İlham Əliyevin Sərəncamına əsasən "Dostluq" ordeni ilə təltif edilib. Dövlətimizin başçısı ordeni İrina Viner-Usmanovaya təqdim etdi.



Prezident İlham Əliyev Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanovanı Azərbaycanın yüksək mükafatlarından olan "Dostluq" ordeni ilə təltif olunması münasibətilə təbrik etdi və onun ölkələrimiz arasında idman və ümumilikdə dostluq əlaqələrinin inkişafındakı rolunu xüsusi vurğuladı. Prezident İlham Əliyev İrina Viner-Usmanovaya Azərbaycanda gimnastika məktəbinin yaradılması işinə verdiyi böyük töhfəyə görə də minnətdarlığını bildirdi. Dövlətimizin başçısı İrina Viner-Usmanovanın təkcə Azərbaycanda deyil, dünya idman ailəsində böyük nüfuza malik olduğunu qeyd edərək məhz onun səyləri nəticəsində Rusiya gimnastlarının da uzun illərdir yüksək nəticələr göstərdiyini vurğuladı. Prezident İlham Əliyev İrina Viner-Usmanovaya gələcək fəaliyyətində yeni-yeni uğurlar arzuladı. Xoş sözlərə görə minnətdarlığını bildirən İrina Viner-Usmanova Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən ona göstərilən diqqətdən böyük məmnunluq hissi keçirdiyini qeyd etdi. O, birinci xanım Mehriban Əliyevanın Azərbaycanda bədii gimnastika növünün əsasının qoyulmasında və inkişafında xüsusi rolunu yüksək qiymətləndirdi. İrina Viner-Usmanova Azərbaycanda bədii gimnastika növünə göstərilən qayğıdan danışaraq Bakıda çox möhtəşəm gimnastika arenasının inşa edildiyini qeyd etdi. Azərbaycana səfərlərindən məmnunluq hissini ifadə edən İrina Viner-Usmanova ölkəmizə hər gəlişi zamanı böyük inkişaf proseslərinin, yeni-yeni memarlıq nümunələrinin şahidi olduğunu

## Rəsmi xronika

Prezident İlham Əliyev Arif Məlikovun xatirəsinin əbədiləşdirilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Siraqəddin Cabbarovun Saatlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Dövlət başçısı eyni zamanda Siraqəddin Nəcəf oğlu Cabbarovun Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi ilə bağlı Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyevin imzaladığı digər Sərəncamlarla Nazim Mehdi oğlu İsmayılov Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilərək, Saatlı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 15 aprel tarixli 122 nömrəli və "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 26 dekabr tarixli 616 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında" 1997-ci il 24 iyun tarixli 609 nömrəli, "Sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qeydiyyatının "bir pəncərə" prinsipinə uyğun təşkili ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2008-ci il 20 fevral tarixli 713 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli, "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" 2015-ci il 21 dekabr tarixli 713 nömrəli və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# "Ukrayna-Azərbaycan əlaqələrinin inkişafı üçün böyük imkanlar var"

*Prezident İlham Əliyev Ukraynanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Ukraynanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vladislav Kanevskinin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, Vladislav Kanevski etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.***



Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi. Söhbət zamanı Azərbaycan-Ukrayna münasibətlərinin müxtəlif aspektləri, o cümlədən ticarət dövriyyəsi, iqtisadi əməkdaşlıq, sərmayə qoyuluşu, mədəni əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Səfir əminliyini ifadə etdi ki, ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Ukrayna-Azərbaycan əlaqələrinin inkişafı istiqamətində səylərini əsirgəməyəcək.

# Əli Həsənov: “Biz regional əməkdaşlığı dərinləşdirəcək, genişləndirəcək və inkişaf etdirəcəyik”

*Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 15 illiyi münasibətilə Həştərxanda bir sıra tədbirlər keçirilib*





Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 15 illiyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələləri üzrə köməkçisi Əli Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Həştərxan vilayətinə rəsmi səfərə gəlib. Həştərxan şəhərinin beynəlxalq aeroportunda Azərbaycan nümayəndə heyətini Həştərxan vilayəti qubernatorunun səlahiyyətlərini müvəqqəti icra edən Sergey Morozov və digər rəsmi şəxslər qarşılayıblar. Ənənəyə görə, qonaqları duz-çörəklə qarşılayıblar.

Sonra Azərbaycan və Həştərxan nümayəndə heyətləri ümummilli lider Heydər Əliyevin Həştərxan şəhərinin mərkəzində onun adını daşıyan parkda ucaldılmış abidəsi önünə tər güllər düzüblər.



Heydər Əliyev adına parkda hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə rəmzi ağacəkmə aksiyası keçirilib.

Daha sonra Həştərxan vilayəti administrasiyasında Azərbaycan və Həştərxan nümayəndə heyətlərinin görüşü olub. Görüşdə ikitərəfli münasibətlərə dair məsələlər müzakirə edilib, qarşılıqlı əməkdaşlığı genişləndirməyin və dərinləşdirməyin vacibliyi vurğulanıb.

Görüşdən sonra Əli Həsənov və Sergey Morozov Azərbaycan və Rusiya KİV nümayəndələrinin suallarını cavablandırıblar.

Əli Həsənov jurnalistlərlə söhbətində deyib ki, Həştərxan vilayəti qubernatoru səlahiyyətlərini icra edən Sergey Morozovla görüşdə ikitərəfli münasibətlərə dair məsələlər müzakirə edilib. Prezidentin köməkçisi deyib: “Biz regional əməkdaşlığı dərinləşdirəcək, genişləndirəcək və inkişaf etdirəcəyik. Bu, həm Həştərxan vilayətinin sakinləri, həm də Azərbaycan əhalisi üçün vacibdir. Azərbaycan Respublikasının və Rusiya Federasiyasının prezidentləri bizim qarşılıqlı tərəfdaşlıq münasibətlərimizin strateji istiqamətlərini müəyyən ediblər. Həştərxan vilayətinin və Azərbaycan Respublikasının rəhbərləri bu planları ən qısa müddətdə həyata keçirməyə çalışacaqlar”.

Qubernator səlahiyyətlərinin icra edən Sergey Morozov vurğulayıb ki, Həştərxan vilayəti Azərbaycan ilə qarşılıqlı fəaliyyət üzrə böyük işlər planlaşdırır. S.Morozov deyib: “Bugünkü görüşümüz ümumi niyyətlərə yönəlmiş daha bir addımdır. Görüş yüksək səviyyədə keçdi və biz bundan sonra da ikitərəfli münasibətlərin inkişafını davam etdirəcəyik”.

Azərbaycan nümayəndə heyəti səfər çərçivəsində Azərbaycan İşgüzar Mərkəzində olub, orada Heydər Əliyev Fondunun və Fondun vitse-prezidenti Leyla Əliyevanın adından Həştərxan şəhərindəki uşaq evlərində tərbiyə alan bir qrup uşağa ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 15 illiyi münasibətilə xatirə hədiyyələri təqdim edilib. Uşaqlar onlara göstərilən diqqət və qayğıya görə Heydər Əliyev Fonduna təşəkkür ediblər. Hədiyyələrin təqdim edilməsi mərasimindən sonra uşaq evlərində tərbiyə alanlar və onların müəllimləri Azərbaycan İşgüzar Mərkəzinin binası qarşısında Azərbaycanın üçrəngli bayrağı rəngində olan şarları səmaya buraxıblar. Tədbirin sonunda xatirə şəkli çəkdirilib.



Sonra Azərbaycan nümayəndə heyəti Heydər Əliyev adına 11 nömrəli orta ümumtəhsil məktəbinə gəlib. Burada təhsil müəssisəsinin foyesində Azərbaycan xalqının Ümummilli Liderinin büstü önünə tər çiçəklər qoyulub. Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 15 illiyi münasibətilə Ulu Öndərin adını daşıyan və 8 il bundan əvvəl Fondun təşəbbüsü ilə əsaslı təmir edilmiş məktəbdə şagirdlər tərəfindən bədii konsert proqramı təqdim olunub. Tədbir çərçivəsində təhsildə fərqlənən şagirdlərə və onların müəllimlərinə Heydər Əliyev Fondu adından hədiyyələr təqdim edilməsi mərasimi keçirilib. Mərasimdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya, vitse-prezident, Fondun Rusiyadakı nümayəndəliyinin rəhbəri Leyla Əliyevaya Fondun çoxşaxəli fəaliyyətinə görə təşəkkür ifadə edilib.



Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxışında ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, habelə Fondun həm ölkəmizdə, həm də Azərbaycan hüdudlarından kənarda həyata keçirdiyi irimiqyaslı layihələr barədə məlumat verib. Qeyd edilib ki, Rusiyanın çoxsaylı regionlarında müxtəlif layihələr reallaşdıran Fond Həştərxan vilayətinin əsl dostudur.

Həştərxan vilayətinin beynəlxalq və xarici iqtisadi əlaqələr naziri səlahiyyətlərini icra edən Denis Afanasyev, Heydər Əliyev adına 11 nömrəli orta ümumtəhsil məktəbinin direktoru Tatyana Tixomirova, Heydər Əliyev Fondunun və şəxsən Fondun prezidenti Mehriban Əliyevanın Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında dostluq münasibətlərinin inkişafında və möhkəmlənməsində xidmətlərini qeyd ediblər.

Əli Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti səfər çərçivəsində Həştərxan vilayəti ərazisində yaradılmış Azərbaycanın “KDY Logistics” şirkətinin logistik habı ilə də tanış olub. Bu şirkət “bir pəncərə” prinsipi üzrə gömrük və fitosanitar nəzarətin həyata keçirilməsini, həm Azərbaycandan, həm də başqa ölkələrdən kənd təsərrüfatı məhsullarının qəbulunu, saxlanılmasını və göndərilməsini təmin edir. Hab ilə tanışlıq zamanı Azərbaycan Prezidentinin köməkçisi Əli Həsənov Həştərxan vilayəti gömrük xidmətinin, “Rospotrebnadzor”un, “Rusiya Dəmir Yolları” ASC-nin Volqaboyu dəmiryolu struktur bölməsinin Həştərxan şöbəsinin və digər əlaqədar strukturların rəhbərləri ilə fikir mübadiləsi aparıb.

Bununla da Azərbaycan nümayəndə heyətinin Həştərxan vilayətinə səfəri başa çatıb.

# Əli Əhmədov: "Azərbaycan dünyada ən çox islahat aparan ölkələrdən biridir"

*II Bakı Beynəlxalq Qida Təhlükəsizliyi Konfransı işə başlayıb*






**Mayın 17-də II Bakı Beynəlxalq Qida Təhlükəsizliyi Konfransı işə başlayıb. Konfrans Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi "WorldFood Azerbaijan 2019" sərgisi çərçivəsində təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən AQTA-nın sədri Qoşqar Təhməzli konfransın keçirilməsində əsas məqsədlərdən birinin qida təhlükəsizliyi sahəsində xarici ölkələrlə və beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrini daha da inkişaf etdirmək, onların Azərbaycanda qida təhlükəsizliyinin təmin edilməsinə töhfə verə biləcək layihələrini səmərəli şəkildə əlaqələndirmək, həyata keçirmək və bu istiqamətdə mütəmadi olaraq fikir mübadiləsi aparmaqdan ibarət olduğunu qeyd edib. Agentliyin sədri bildirib ki, AQTA bu sahədə beynəlxalq təşkilatlarla hər cür əməkdaşlığa və birgə fəaliyyətə hazırdır. Qoşqar Təhməzli, həmçinin deyib: "Azərbaycanda qida təhlükəsizliyinin təmin edilməsi istiqamətində mühüm işlər görülür. Ölkəmizdə qida təhlükəsizliyi sahəsində 2019-2025-ci illəri əhatə edən Dövlət Proqramı qəbul olunub. Qida təhlükəsizliyi mərhələli şəkildə həyata keçirilən prosesdir. Təsdiq olunmuş yeddi illik proqram yaxın zamanlarda mərhələli şəkildə həyata keçirilməyə başlanılacaq".

Q.Təhməzli rəhbərlik etdiyi qurumun müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq etdiyini də diqqətə çatdırıb.

Azərbaycan Respublikası baş nazirinin müavini Əli Əhmədov dünya əhalisinin sürətlə artdığını və insanların tələbatlarını ödəmək üçün resursların azaldığını deyib: "İnsanların tələbatlarının ödənilməsi üçün qidanın yeni üsullarla istehsalına ehtiyac yaranıb. Bu zaman qidanın keyfiyyəti, tərkibi, insan sağlamlığına təsiri məsələsi ön plana çıxır. Hazırda qida təhlükəsizliyi problemi bəşəriyyət üçün vacibdir. Ona görə də hər bir ölkə öz prioritetlərini ortaya qoymalı, səylər birləşdirilməlidir. Azərbaycan dünyada ən çox islahat aparan ölkələrdən biridir. İslahatlar arasında qida təhlükəsizliyinin təkmilləşdirilməsi, əhalinin sağlam qida ilə təminatı da yer alıb. Ölkəmizdə qida təhlükəsizliyinin təmin edilməsi sahəsində konsepsiya hazırlanıb. Onu da qeyd edim ki, ölkəmizdə kifayət qədər münbit torpaqların bir qismi işğal altındadır. Bu o deməkdir ki, kənd təsərrüfatına yararlı torpaqların potensialı 20 faiz azalıb.

Ölkəmizdə daxili istehsal nəticəsində əldə edilən məhsullarla yanaşı, idxal edilən məhsulların da müvafiq standartlara uyğunlaşdırılması nəticəsində sağlam qida təminatına imkan yaradacaq. Azərbaycan qida təhlükəsizliyi sahəsində öz üzərinə düşən vəzifələri dərk edir. Ümid edirəm ki, həyata keçirilən tədbirlər və atılacaq addımlar nəticəsində əhali sağlam qida ilə təmin olunacaq".

Baş nazirin müavini tədbirin qida təhlükəsizliyi sahəsində ciddi müzakirə və fikir mübadiləsinə imkan verəcəyini bildirib və konfransın işinə uğurlar arzulayıb.

Tədbirdə çıxış edən Kənd Təsərrüfatı naziri İnam Kərimov qida təhlükəsizliyinin beynəlxalq dialoqların əsas müzakirə mövzusu olduğunu bildirib. İnam Kərimov qeyd edib ki, araşdırmalara görə, qidanın insan sağlamlığına mənfi təsiri iqtisadiyyata zərər vurur: "Qida təhlükəsizliyi həm sosial, həm də iqtisadi əhəmiyyətə malikdir. O həm də Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq şərtlərindən biridir. Qlobal inkişafın bütün mərhələlərini innovasiyasız təsəvvür etmək mümkün deyil. Təhlükəsiz qidanın istehsalı üçün innovativ texnologiyaların tətbiqi vacibdir. Onu da qeyd edim ki, ölkəmizdə ərzaq məhsullarının keyfiyyəti getdikcə yüksəlir. Kənd Təsərrüfatı Nazirliyi qida təhlükəsizliyinin təmin edilməsində maraqlı tərəflərdən biridir. Nazirlik bu sahədə üzərinə düşən vəzifələri layiqli yerinə yetirir".

Qeyd edilib ki, II Bakı Beynəlxalq Qida Təhlükəsizliyi Konfransı ölkəmizin etibarlı tərəfdaş kimi beynəlxalq təşkilatlarla əməkdaşlığını daha da genişləndirəcək, kənd təsərrüfatı və qida sənayesi sektorları üzrə ixracatın inkişafına mühüm töhfə verəcək, daxili və beynəlxalq bazarlarda istehlakçıların ehtiyaclarına cavab verən yüksəkkeyfiyyətli və təhlükəsiz məhsulların istehsalına kömək edəcək.

## Baş Nazir Novruz Məmmədov Çexiya Parlamentinin Deputatlar Palatasının sədri ilə görüşüb




Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov mayın 17-də Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Baş Nazir Novruz Məmmədov ölkəmizin müstəqilliyini bərpa etməsindən sonra Azərbaycan-Çexiya əlaqələrinin inkişaf mərhələsinə qədəm qoyduğunu bildirərək dövlətlərimizin başçılarının qarşılıqlı səfərlərinin, görüşlərinin ölkələrimiz arasındakı münasibətlərin inkişafına mühüm töhfələr verdiyini deyib. 2015-ci ildə ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalandığını xatırladan Baş Nazir qeyd edib ki, Azərbaycan Respublikası ilə Çex Respublikası arasında siyasi, iqtisadi, humanitar, elmi-texniki və digər sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurulub.

Azərbaycanın Dağlıq Qarabağ regionunun və onun ətrafında yerləşən 7 rayonun uzun illərdir erməni işğalı altında olduğunu bildirən Novruz Məmmədov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin ədalətli mövqeyinə verdiyi dəstəyə, Xocalı soyqırımı ilə bağlı qəbul olunmuş sənədə görə Çex Respublikasına və onun parlamentinə minnətdarlığını ifadə edib.

Ölkəmizə geniş tərkibdə nümayəndə heyəti ilə səfər etdiklərini vurğulayan Radek Vondraçek Azərbaycan ilə Çexiya arasında çox yaxşı münasibətlərin mövcud olduğunu, bu səfərlərinin də ikitərəfli əlaqələrin daha da genişləndirilməsinə töhfə vermək məqsədi daşıdığını vurğulayıb. Azərbaycanın Çexiyanın etibarlı tərəfdaşı olduğunu qeyd edən Radek Vondraçek ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllini dəstəklədiyini söyləyib. Görüşdə ölkələrimizin parlamentləri arasında da yaxşı əlaqələrin qurulduğu qeyd olunub, həmçinin hökumətlərarası birgə komissiyanın fəaliyyətinə, enerji, turizm, ticarət, təhsil sahələrində əməkdaşlığın genişləndirilməsinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

## "Ölkəmizə qarşı çirkin kampaniya aparanların cavabını verməliyik"



Bəzi xarici dairələr Azərbaycanda keçirilən islahatlara qarşı ədalətsiz şəkildə qarayaxma kampaniyası aparır, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən danışıqlara təzyiq göstərməyə çalışırlar. SİA xəbər verir ki, bunu Milli Məclisin deputatı Siyavuş Novruzov parlamentin dünən keçirilən iclasında deyib.

S.Novruzov bildirib ki, həmin dairələr idmanı siyasətə qatırlar: "Necə olunur Azərbaycanda Böyük Britaniya şirkətləri fəaliyyət göstərəndə, burda neft çıxaranda Azərbaycan təhlükəli olmur, iki futbol komandası gələndə təhlükəli olur? Sapı özümüzdən olan baltaların hərəsinə erməni lobbisi tərəfindən 5 manat verilib Azərbaycanın həyata keçirdiyi işlərə, iqtisadi islahatlara kölgə salmağa çalışırlar".

Deputat bildirib ki, post-sovet məkanında Avropa İttifaqı ilə Azərbaycan qədər əməkdaşlıq edən ikinci bir ölkə yoxdur: "Bu qədər görülən işləri qoyurlar bir kənara başlarlar qarayaxma kampaniyası aparmağa. Xaricdə olan bəzi azərbaycanlılar ermənilərlə eyni vaxta fəaliyyətə başlayırlar. Düyməni eyni yerdən sıxırlar. Bütün Azərbaycan cəmiyyəti Prezdentin siyasətini dəstəkləyir. Biz ölkəmizə qarşı çirkin kampaniya aparan həmin şəxslərə də, siyasətçilərə də cavab verməliyik. Siz bizi hədələməklə öz maraqlarınızı həyata keçirə bilməyəcəksiniz".



# Çex Respublikası Parlamentinin Deputatlar Palatasının nümayəndələri Azərbaycan Milli Aviasiya Akademiyasında olublar



***Ölkəmizdə səfərdə olan Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin başçılıq etdiyi nümayəndə heyəti mayın 17-də Azərbaycan Milli Aviasiya Akademiyasında olub.***

AZƏRTAC xəbər verir ki, qonaqlar əvvəlcə akademiyanın Pilotların Hazırlığı Mərkəzi ilə tanış olublar. Sonra Azərbaycan Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev Çexiya nümayəndə heyəti ilə görüşüb.

Azərbaycan-Çexiya əlaqələrinin yüksək səviyyədə olduğunu qeyd edən rektor Arif Paşayev Azərbaycan aviasiyası barədə qonaqlara məlumat verib. Ölkəmizin Çexiya ilə əlaqələrə önəm verdiyini, iki ölkə arasında əməkdaşlığın inkişafında dövlət başçılarının qarşılıqlı səfərlərinin, bu səfərlər zamanı əldə edilmiş razılaşmaların əhəmiyyətini vurğulayan Arif Paşayev bildirib ki, Azərbaycan və Çexiya siyasi, iqtisadi və humanitar sahələrdə sıx əməkdaşlıq edir. İki ölkə arasında mövcud əməkdaşlığın yüksək inkişaf potensialı olduğunu vurğulayan akademik mülki aviasiya sahəsində də geniş imkanların olduğunu deyib.

Arif Paşayev Milli Aviasiya Akademiyası, "Azərbaycan Hava Yolları" (AZAL) aviaşirkəti və Heydər Əliyev Beynəlxalq Aeroportu barədə qonaqlara məlumat verərək bildirib ki, 2018-ci ildə Azərbaycan mülki aviasiyasının 80 illik yubileyi təntənəli qeyd olunub. Hazırda AZAL postsovet məkanında mülki aviasiya sahəsində aparıcı aktorlardan birinə çevrilib, beynəlxalq aviasiya birliyinin üzvü olub. 2014-cü ildə Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni müasir terminalı istifadəyə verilib. Aeroport bu yaxınlarda nüfuzlu "Skytrax" auditor şirkətinin ən yüksək "5 Ulduz" qiymətinə layiq görülüb. Bu ən yüksək qiymət Heydər Əliyev Beynəlxalq Aeroportundan başqa cəmi 8 aeroporta verilib. AZAL isə qısa müddət ərzində geniş füzelyajlı "Boeing", "Airbus", "Embraer" kimi ən müasir təyyarələrin, qərbdə istehsal olunmuş helikopterlərin istismarına başlayıb. 2017-ci ildə aşağı büdcəli "Buta Airways" aviaşirkəti yaradılıb.

Pilotların Hazırlığı Mərkəzi barədə danışan rektor buranın MDB məkanında ən böyük tədris mərkəzi olduğunu vurğulayıb. O, mərkəzdə hazırkı pilotların gələcək pilotlara dərs keçdiyini bildirib. Akademik həmçinin mərkəzdə Rusiya, Özbəkistan və digər ölkələrdən pilotların təcrübə keçdiyini də diqqətə çatdırıb.

Ölkəmizdə olmaqdan məmnunluğunu ifadə edən Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri R.Vondraçek akademik Arif Paşayevi Çexiyaya səfərə dəvət edib. "İki gün ərzində biz bir sıra görüşlər keçirdik, Azərbaycanın bir sıra sahələrdəki təcrübəsi ilə yaxından tanış olduq. Azərbaycan Prezidenti İlham Əliyevlə görüşümüz çox səmərəli keçdi. Azərbaycan Prezidenti də vurğuladı ki, bizim ölkələrimiz arasında iqtisadi əməkdaşlığın yaxşı perspektivləri mövcuddur. Nümayəndə heyətinin Azərbaycana səfərinin məqsədi ölkələrimiz arasında mövcud olan çox yaxşı münasibətlərin daha da inkişaf etdirilməsi işinə töhfə verməkdir".

Görüşdə Azərbaycanla Çexiya arasında aviasiya sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub, Bakı-Praqa-Bakı marşrutu üzrə aviareyslərin sayının artırılması və ikitərəfli təcrübə mübadiləsinə dair geniş fikir mübadiləsi aparılıb.

# Elmar Məmmədyarov Makronun müşaviri ilə görüşüb



Fransa Respublikasına işgüzar səfəri çərçivəsində 16 may tarixində nazir Elmar Məmmədyarov Fransa Respublikası Prezidentinin diplomatik məsələlər üzrə müşaviri Filip Etiyen ilə görüşüb. SİA-nın verdiyi məlumata görə, görüş zamanı tərəflər Azərbaycan və Fransa arasında ikitərəfli münasibətlərin cari vəziyyəti ilə bağlı fikir mübadiləsi aparıblar. Əməkdaşlığın inkişafından məmnunluqlarını bildirən tərəflər əlaqələrin daha da inkişafında qarşılıqlı yüksək səviyyəli səfər mübadiləsinin intensivləşdirilməsinin zəruriliyini vurğulayıblar.

Nazir Elmar Məmmədyarov ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə aparılan danışıqların cari vəziyyəti haqqında qarşı tərəfə məlumat verib. Münaqişənin tezliklə həllinin, Azərbaycanın işğal edilmiş ərazilərinin azad edilməsinin və azərbaycanlı məcburi köçkünlərin öz doğma yurdyuvalarına geri qayıtmasının bölgədə davamlı sülh və inkişafın təmin olunması baxımından əhəmiyyəti vurğulanıb. Görüş zamanı tərəflər beynəlxalq gündəliyin qarşılıqlı maraq doğuran məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycanın Xarici İşlər Nazirliyi Laçının işğalının 27-ci ildönümü ilə bağlı açıqlama yayıb

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva Laçın rayonunun işğalı ilə bağlı açıqlama yayıb. AZƏRTAC xəbər verir ki, açıqlamada 27 il əvvəl, 1992-ci il mayın 18-də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olmayan Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu bildirilir.

Qeyd edilir ki, Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı hərbi təcavüz siyasətinin davamı olan Laçın rayonunun işğalı nəticəsində bölgənin əhalisi etnik təmizləməyə məruz qalıb və hazırda 77 min 518 nəfər Laçın sakini Azərbaycanın müxtəlif bölgələrində məcburi köçkün kimi yaşayır.

Ermənistanın işğalı rayonda dövlət mülkiyyətinə və özəl mülkiyyətə ciddi zərər yetirib. Belə ki, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri talan və məhv edilib. Həmçinin dünya, yerli əhəmiyyətli çoxsaylı tarixi abidə vandalizmə məruz qalıb. O cümlədən VI əsrə aid Alban Ağoğlan məbədi, XIV əsrə aid Məlik Əjdər türbəsi, Qaraqışlaq kəndində məscid, Zabux kəndində qədim qəbiristanlıq viran edilib, Laçın Tarix Muzeyi və onun qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kolleksiyası talan olunub.

Beynəlxalq humanitar hüququ, o cümlədən Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozan Ermənistan işğal etdiyi digər Azərbaycan ərazilərində olduğu kimi, Laçın rayonunda da qeyri-qanuni fəaliyyəti davam etdirir, coğrafi adlar dəyişdirilir, rayonun təbii resursları talan edilir, qanunsuz infrastruktur dəyişiklikləri həyata keçirilir, burada məqsədyönlü məskunlaşma siyasəti aparılaraq bölgənin demoqrafik tərkibi dəyişdirilir.

Avropa İnsan Hüquqları Məhkəməsi Azərbaycanın Laçın rayonundan məcburi qovulmuş Azərbaycan vətəndaşlarının xeyrinə "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə 2015-ci il 16 iyun tarixli qərar qəbul edərək onların İnsan Hüquqları və Fundamental Azadlıqların qorunmasına dair Konvensiya üzrə mülkiyyət hüququnun, şəxsi və ailə həyatına hörmət kimi hüquqlarının pozulduğunu təsbit edib. Həmçinin bu qərarın 19-20-ci paraqraflarda Laçın rayonu, əlxüsus Laçın şəhərinin hərbi hücuma məruz qalması, 1992-ci il may ayının ortalarında Laçının havadan bombardman edilməsi və bunun nəticəsində çoxlu sayda evlərin dağıdılması, şəhərin talan edilməsi və yandırılması, hərbi münaqişə dövründə Laçın və ətraf kəndlərin tamamilə dağıdılması öz təsdiqini tapıb.

BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycan ərazilərinin işğalını pisləyib, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiq edərək işğalçı qüvvələrin zəbt olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edib. Lakin Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, eləcə də digər beynəlxalq təşkilatların qəbul etdiyi qərar və qətnamələrin tələblərinə məhəl qoymayaraq onları ciddi şəkildə pozur və Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaq edilməsi siyasətini yürüdür.

Ermənistan anlamalıdır ki, Azərbaycan ərazilərinin işğal altında saxlanılması heç zaman Ermənistanın güddüyü siyasi nəticələri verməyəcək. Azərbaycan ərazilərinin işğalına əsaslanan status-kvo dayanıqlı deyil və qəbuledilməzdir. Bölgənin, o cümlədən Ermənistanın özünün dayanıqlı, demokratik, sülh, sabitlik və təhlükəsizliyin təmin olunduğu bir şəraitdə inkişafı, ilk növbədə, beynəlxalq hüququn aliliyinin təmin olunması, işğal amilinin aradan qaldırılması, məcburi köçkünlərin fundamental hüquqlarının bərpa olunmasından asılıdır. Yalnız Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrindəki Ermənistan silahlı qüvvələrinin bu ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması və azərbaycanlı məcburi köçkünlərin öz evlərinə geri qayıtması iki ölkə arasında normal qonşuluq münasibətlərinin qurulmasına və bölgədə davamlı sülh, təhlükəsizlik və rifahın bərpa olunmasına imkan yaradacaq. Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünün bərpa edilməsi, Laçın, habelə ölkənin digər işğal edilmiş rayonlarından olan məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmaq kimi hüquqlarının təmin edilməsi və ümumilikdə, münaqişənin ağır fəsadlarının aradan qaldırılması beynəlxalq ictimaiyyətin öhdəliyi olmaqla yanaşı, BMT Nizamnaməsində təsbit edildiyi kimi, Azərbaycan dövlətinin ayrılmaz hüququdur.

# Milli Məclisin növbəti iclası keçirilib

***Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin sədri Oqtay Əsədov gündəliyi təqdim edib. Bildirilib ki, iclasın gündəliyinə 18 məsələ daxildir. Əvvəlcə "Standartlaşdırma haqqında" qanun layihəsi üçüncü oxunuşda səsə qoyularaq qəbul olunub. Deputatlar Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsini də üçüncü oxunuşda təsdiqləyiblər.***




İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri Ziyad Səmədzadə "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirib ki, qanun layihəsi Mülki Məcəlləyə və "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1445-VQD nömrəli Qanununa uyğunlaşdırma məqsədilə hazırlanıb. Qanun layihəsi səsə qoyularaq təsdiq olunub.

Ziyad Səmədzadə "Telekommunikasiya haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edərək bildirib ki, qanun layihəsi "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2018-ci il 28 dekabr tarixli 1447-VQD nömrəli qanunun icrası ilə əlaqədar hazırlanıb. Dəyişikliyin məzmunu ondan ibarətdir ki, kommersiya hüquqi şəxslərinin qeydiyyatını bir pəncərə sistemi əsasında həyata keçirən Vergilər Nazirliyi sorğu verərkən mobil telefon operatorları məhdud məsuliyyətli cəmiyyətin və onun təsisçilərinin təqdim etdikləri mobil nömrələrin həmin şəxslərə məxsusluğu barədə məlumatı verməkdən imtina etməsinlər və bu məlumatı vermək operatorların vəzifələri sırasına daxil edilsin. Bu proses onlayn həyata keçirilir və məqsəd gələcəkdə yaranacaq vergi və digər öhdəliklərlə bağlı məlumatların həmin qurumlara operativ çatdırılmasını təmin etməkdir. Sonra təklif olunan dəyişikliklər səsə qoyularaq qəbul edilib.

Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov "Yeyinti məhsulları haqqında" və "Baytarlıq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirib ki, qanun layihəsi "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2018-ci il 31 may tarixli 1166-VQD nömrəli Qanunun icrası ilə əlaqədar hazırlanıb. Qeyd olunan Qanunla "Yeyinti məhsulları haqqında" Qanuna təklif olunan 7.5-ci maddədə və "Baytarlıq haqqında" Qanuna təklif olunan 39.3-cü maddədə nəzərdə tutulan hərəkətlərə və fəaliyyətlərə görə dövlət rüsumu məbləğləri müəyyən edilib. Qanun layihəsi səsvermə yolu ilə qəbul olunub.

Komitə sədri Eldar İbrahimov "Toxumçuluq haqqında", "Əhalinin radiasiya təhlükəsizliyi haqqında", "Torpaq icarəsi haqqında" və "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Qeyd edib ki, qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun və "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 30 sentyabr tarixli 1036-IVQD nömrəli Qanununun icrası ilə əlaqədar hazırlanıb. Müzakirələrdən sonra qanun layihəsi təsdiqlənib.

Sonra Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi müzakirə olunub. Komitə sədri Əli Hüseynli deyib ki, sənədə uyğunlaşdırma məqsədilə bir sıra texniki düzəlişlər təklif edilir. Belə ki, Mülki Məcəllənin 965.2 və 965.3-cü maddələrində "Hesabdakı" və "Bir" sözləri "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda başqa hal nəzərdə tutulmayıbsa, hesabdakı (bir)" ifadəsi ilə əvəz olunur. Qanun layihəsi səsə qoyularaq qəbul olunub.

"Yol hərəkəti haqqında" və "Notariat haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edən komitə sədri Əli Hüseynli deyib ki, qanunun müvafiq maddələrində "hüquqi şəxslər" sözlərindən sonra ("dövlət qurumları") sözləri əlavə edilir, "xəta haqqında elektron protokol tərtib olunur" ifadəsi "tənbeh vermə haqqında elektron qərar çıxarılır" sözləri ilə əvəz olunur. Qanun layihəsi müzakirə olunaraq təsdiq edilib.

Plenar iclasda, həmçinin İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi haqqında qanun layihəsi müzakirə olunub. Dəyişiklik "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1382-VQD nömrəli Qanununun icrası ilə əlaqədar təklif edilir. Həmin Qanuna əsasən "Feldyeger rabitəsi haqqında qanunvericiliyin pozulması"na görə məsuliyyət müəyyən edən yeni norma Məcəlləyə əlavə edilib. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1382-VQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin maddədə nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərin hazırlanması nəzərdə tutulub. Feldyeger rabitəsi haqqında qanunvericiliyin pozulmasına görə Məcəllənin 550.2-550.5-ci maddələrində nəzərdə tutulan inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərarın prokuror tərəfindən qəbul edilməsi təklif olunur. Komitə sədri Ziyad Səmədzadə "Hesablama Palatası haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirib ki, təklif olunan dəyişiklik "Büdcə sistemi haqqında" Qanunda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1358-VQD nömrəli qanununa uyğunlaşdırma məqsədi daşıyır. Qeyd olunan Qanuna əsasən dövlət büdcəsi zərfinə daxil olan sənədlərin və məlumatların dairəsinin genişləndirilməsi nəzərdə tutulur ki, bu məlumatların biri də Vergi Məcəlləsində nəzərdə tutulmuş güzəşt və azadolmalar barədə məlumatlardır. Bu isə, azadolma və güzəştlərin həcmi, effektivliyi, onun məbləği barədə qiymətləndirmələrə imkan verəcək. Eyni zamanda 8.0.13-cü maddənin ləğvi nəzərdə tutulur ki, nəticədə Hesablama Palatasının inzibati xətalar haqqında işlərə baxmaq və inzibati tənbeh tətbiq etmək hüququ aradan qaldırılır. Sənəd səsə qoyularaq təsdiq edilib.

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edən komitə sədri Ziyad Səmədzadə bildirib ki, qanun layihəsi "Büdcə sistemi haqqında" və "Dövlət borcu haqqında" qanunlara uyğunlaşdırma məqsədi daşıyır. Həmin qanunlarla dövlət zəmanəti üzrə borc öhdəliklərinin yerinə yetirilməsini təmin etmək üçün "Büdcə sistemi haqqında" Qanuna müvafiq olaraq yaradılan məqsədli büdcə fondunun adı "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu" kimi müəyyən olunub. Qanun layihəsi səsə qoyularaq təsdiq edilib.

İclasda birinci oxunuşda "Dövlət rüsumu haqqında" və "Təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri müzakirə olunub. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq təsdiq olunub.

Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini birinci oxunuşda təqdim edən əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli qanun layihəsi barədə məlumat verib. Bildirib ki, dəyişikliklər əməyin mühafizəsi ilə bağlı aparılan islahatlar çərçivəsində əməyin mühafizəsinə yönələn maliyyə vəsaitlərinin mənbələrinin dəqiqləşdirilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təklifləri əsasında 221-ci maddənin təkmilləşdirilməsi məqsədi daşıyır. Sənəd səsə qoyularaq qəbul olunub.

Deputatlar, həmçinin "Yol hərəkəti haqqında", "Milli arxiv fondu haqqında", "Avtomobil yolları haqqında" və "Mədəniyyət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini də birinci oxunuşda təsdiqləyiblər.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda müzakirə olunub. Bildirilib ki, qanun layihəsi "Aviasiya haqqında" Qanunda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1379-VQD nömrəli Qanunun icrası ilə əlaqədar hazırlanıb. Belə ki, həmin Qanunla "Aviasiya haqqında" Qanununa "43-1. Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikası ərazisini tərk edəcək hava gəmisinin sərnişinləri və ekipajı barədə məlumatların alınması" maddəsi əlavə edilib. Həmin maddənin tələbinə görə aviasiya təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə daşıyıcılar Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikası ərazisini tərk edəcək hava gəmisinin sərnişinləri və ekipajı barədə verilməli olan məlumatların siyahısını biletin bronlaşdırıldığı (satıldığı) vaxtdan dərhal sonra və hər bir halda hava gəmisinə minik başlayanadək elektron formada müvafiq icra hakimiyyəti orqanına verməlidirlər. Təqdim olunan Qanun layihəsində həmin tələblərin pozulmasına görə inzibati məsuliyyət nəzərdə tutulub. Qanun layihəsi səsə qoyularaq təsdiq edilib.

İclasda "İcra haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda müzakirə olunaraq qəbul edilib.

"Texniki tənzimləmə haqqında" qanun layihəsini ikinci oxunuşda təqdim edən komitə sədri Ziyad Səmədzadə deyib ki, qanun layihəsi 4 fəsil, 18 maddədən ibarətdir. Qanun layihəsi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin birinci hissəsinin 1-ci və 24-cü bəndlərinə uyğun olaraq, mallar (işlər, xidmətlər), onlarla əlaqəli proseslər və istehsal metodları üzrə texniki tənzimləmənin məqsəd və prinsiplərini və tətbiqi qaydalarını müəyyən edir. Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq təsdiqlənib. Bununla da Milli Məclisin növbəti plenar iclası sona çatıb.

***Rəfiqə Kamalqızı***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

18 may 2019-cu il

# Azərbaycan Avropa İttifaqı ilə ən mühüm mərhələ astanasındadır




*Azərbaycan Prezidenti İlham Əliyevin "Şərq Tərəfdaşlığı" Proqramının 10 illik yubileyinə həsr olunmuş tədbirə qatılmaq üçün Brüsselə getməsindən sonra müxalifət düşərgəsi məntiqsiz, əsassız müzakirələrlə, fikirlərlə yenə də öz cılızlığını nümayiş etdirir. Radikalların xəyanətkarlıqla yanaşı, həm də məlumatsızlıqda, savadsızlıqda, düşüncəsizlikdə tayı-bərabəri olmadığı bu dəfə də öz təsdiqini tapdı. Müxalifət düşərgəsi məsələləri qarışdırmaqla, təsdiq etdi ki, hadisələrin gedişi, proseslər barədə tamamilə anlayışsızdırlar və heç şübhəsiz, əməlli-başlı naşıdırlar.*

Özünün ənənəvi və sosial mediasında "Azərbaycanla Avropa İttifaqı arasında gözlənilən saziş imzalanmayıb" deyə hay-küy qoparanlar, hansı sazişi nəzərdə tuturlar? "Bu görüş çərçivəsində belə bir saziş var idimi" deyə düşünüblərmi və ümumiyyətlə, haqqında boş-boşuna haray-həşir qopardıqları saziş barədə anlayışlıdılarmı? Yaxud gözlənilən saziş deyənlər, ümumiyyətlə, nəyin gözlənilən olub-olmadığını dərk edirlərmi? Görünən odur ki, nə dərk etmirlər, nə də anlamırlar. Heç məsələnin nə yerdə olduğunun fərqində belə deyillər. Gözlənilən saziş deyənlər, fərqində deyillər ki, Azərbaycanın Aİ ilə imzalayacağı Strateji Tərəfdaşlıq Sazişi, yəni haqqında müzakirələr apardıqları sənəd hələ heç hazır da deyil. Belə olan halda, yəni sənəd hazır olmadan, onun imzalanmasından danışmaq, bunu müzakirə mövzusuna çevirmək nə deməkdir? Dillərindən "Avropa" sözü düşməyən bu müxaliflər köhnə qitədə analoji faktın nə vaxtsa şahidi olublarmı? Yaxud dünyanın hansısa ölkəsindəsə hazır olmayan sənədin müzakirə olunmasına rast gəliblərmi? Xeyr, rast gəlməyiblər. Heç bundan sonra da rast gələ bilməzlər. Bu cür gülünc addım yalnız özlərinə məxsusdur və analoqunu da axtarmağa dəyməz.

Məsələ burasındadır ki, radikallar Azərbaycanın Aİ ilə imzalayacağı Strateji Tərəfdaşlıq Sazişi ilə "Şərq Tərəfdaşlığı" Proqramının 10 illiyinə həsr olunmuş Bəyannaməni bir-birindən ayıra, bunlar arasındakı fərqi dərk edə bilmirlər. Dərk edə bilmədikləri üçün də qarışdırıblar və bununla da, özlərini dolaşığa salıblar. Əgər həmin Bəyannamənin mətni ölkəmizi qane etmədiyi halda, Azərbaycan veto hüququndan istifadə edirsə, bu, heç kimə, heç cür əsas vermir ki, hadisələrin, məhz bu şəkildə gedişini "hakimiyyətin məğlubiyyəti" kimi qələmə versin. Ölkələrin ərazi bütövlüyü məsələsi öz əksini tapmadığı halda, veto hüququndan istifadə nə vaxtdan məğlubiyyət hesab olunub? Həm də axı təkcə Azərbaycandan söhbət getmir və "Şərq tərəfdaşlığı"nın digər üzvləri olan Gürcüstan və Ukrayna üçün də bu prinsipial məqamdır. Sənədi Federiko Moqerininin təkcə özünün imzalamalı olması, heç də təsadüfi deyil və bu, əslində, bir çox məqamlara aydınlıq gətirilməsi üçün yetərlidir.

### Düşmən dəyirmanına su tökən müxalifət düşməndən fərqlənmir

Ermənistan mediasında olan dezinformasiyaları, təbliğatı, Azərbaycan əleyhinə sərgilənən mövqeyi başa düşmək çətin deyil. Əvvəla, yalan və iftira üzərinə qurulan fəaliyyətin, anti-təbliğatın, həmçinin, düşmən mövqeyinin fonunda, bu, başadüşüləndir. Digər tərəfdən, ermənilər təxribata da maraqlıdırlar və Azərbaycan əleyhinə istənilən yola əl ata bilərlər. İndi də "Şərq Tərəfdaşlığı" Proqramının 10 illiyinə həsr olunmuş Bəyannaməni "Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü tanımır" kimi təbliğ etmələrində yeni taktika və təəccüb doğuracaq heç nə yoxdur. Bu, tam alışqanlı olduğumuz və gözlədiyimiz haldırsa da, daxildə belə erməni dəyirmanına su tökənləri başa düşmək olmur ki, olmur. Yəni bu xəyanətkar mövqeyi, ən azından, qəbul etmək mümkün deyil.

Müxalifətdə təmsil olunur deyə dövlətin, xalqın əleyhinə fəaliyyət deyilən bir yol yoxdur və bunun bircə adı var, o da xəyanətdir. Öz ölkəsinin Avropada uğursuzluqla qarşılaşacağını arzulamaq insanın xəyanətkarlığından xəbər verir. Öz ölkəsinə, öz vətəninə insanın düşmən münasibətdə olması ikrah doğurur və çox təəssüf hissi ilə, qeyd etmək lazımdır ki, biz bunun şahidiyik. "Şərq Tərəfdaşlığı" Proqramının 10 illiyinə həsr olunmuş Bəyannamənin, bir sənəd olaraq, hansısa hüquqi və ya siyasi qüvvəsi olmadığı halda, Avropa İttifaqının münaqişələrə rəsmi münasibətini belə əks etdirmədiyi halda, bunu əldə bayraq edib, ölkəmiz əleyhinə anti-təbliğat aparan, bununla da, düşmən dəyirmanına su tökən müxaliflər düşməndən fərqlənmir.

### Azərbaycanın mövqeyi ölkənin maraqlarının və ərazi bütövlüyünün qorunmasında israrlı və qətiyyətli olmasını isbatlayır

Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskla Prezident İlham Əliyevin görüşü, müzakirə etdikləri məsələlər və hər iki tərəfdən səsləndirilən bəyanatlar ikitərəfli əlaqələrdə narahatçılığa səbəb ola biləcək heç bir gərginlik olmadığını deməyə əsas verir. Digər tərəfdən, "Şərq Tərəfdaşlığı"nın 10 illiyinə həsr olunan Bəyannamənin imzalanmaması Qarabağ məsələsinin sənəddə hansı formada əks etdirilməsi üzərində razılığa gələ bilməmək anlamına gəlir. Bu, həm də, o anlama gəlir ki, rəsmi Bakı da bu prinsipial məsələdə geriyə addım atmaq niyyətində deyil və danışıqlar, məhz bu səbəbdən, uzanır.



Müxalifət düşərgəsində ən çox müzakirə olunan Bakı ilə Brüssel arasındakı danışıqların gündəliyində insan haqları, demokratiya kimi mövzuların çətinlik yaratması söz-söhbətdir. Bəli, bu, sözün əsl mənasında, söz-söhbətdir. Çünki bu sadalananları təsdiqləyəcək heç bir fakt, dəlil, əsas yoxdur və ola da bilməz. Strateji tərəfdaşlıq müstəvisində isə, bu mövzu tamamilə rakursa uyğun deyil. Strateji tərəfdaşlıq, adından da göründüyü kimi, strateji əhəmiyyət kəsb edən məsələdir və heç şübhəsiz ki, Avropa İttifaqı Azərbaycan kimi ölkə ilə belə bir tərəfdaşlıqdan imtina etmək niyyətində ola bilməz. Azərbaycan Avropa İttifaqı ilə ən mühüm mərhələ astanasındadır. Ən yaxın zamanda bu tarixi sənədin, sazişin imzalanacağı və Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin mühüm bir mərhələyə qədəm qoyacağı günün reallığıdır.

**İnam HACIYEV**

# YAP Səbail rayon təşkilatı Cocuq Mərcanlı məktəblilərini Bakıya gətirib




***Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının və Səbail rayonu C.Əskərov adına 50 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin bir qrup şagirdinin Bakıya səfəri reallaşıb.***



Səfərdə Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbindən 20 şagird, məktəbin direktoru Zamin Həziyev və 2 müəllim iştirak edib.

Cocuq Mərcanlı məktəbliləri Səbail rayonu C.Əskərov adına 50 nömrəli tam orta məktəbdə "Sinəsi dağlanmasın, bölünməsin bu torpaq" adlı tədbirdə iştirak ediblər.

Tədbirdə iştirak edən YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev bildirib ki, Azərbaycan Ordusu aprel döyüşlərində öz gücünü düşmənə göstərdi. Məhz bunun nəticəsidir ki, düşmənin silahlı qüvvələrindən bir kilometr aralıda yerləşən Cocuq Mərcanlı kəndində insanlar rahat şəkildə yaşayırlar. Azərbaycan Ordusuna güvənən Cocuq Mərcanlı sakinlərinin burada rahat və asudə yaşadığını deyən deputat dövlətin onlara yeni iş yerləri və məktəb yaratdığını söyləyib.

Sonra C.Əskərov adına 50 nömrəli və Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəblərinin direktorları Sədaqət Həsənova və Zamin Həziyev Səbail rayon YAP təşkilatına bu cür tədbiri təşkil etdiyinə görə minnətdarlıqlarını bildiriblər. Qeyd edilib ki, bu tədbir məktəblilər arasında birliyi gücləndirir. Daha sonra məktəb direktorları təhsil ocaqlarının qardaşlaşması ilə bağlı niyyət protokolu imzalayıblar.



Tədbirin sonunda məktəblilərin hazırladığı kompozisiya nümayiş olunub.

Qeyd edək ki, üçgünlük səfər proqramı çərçivəsində məktəblilər Azərbaycan Xalça Muzeyində, "Ateşgah"da, Qala Muzeyində və Yanardağda olacaqlar.

**RƏFİQƏ HÜSEYNOVA**

# "Azərbaycan-AB münasibətlərini tənzimləyən çoxşaheli sənəd üzərində iş gedir"

"Azərbaycan Prezidenti İlham Əliyevin Brüsseldə Şərq Tərəfdaşlığı sammitində çox önəmli hadisədir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Asim Mollazadə deyib. Əslində Azərbaycanın Avropa Birliyi ilə bir neçə istiqamətdə tərəfdaş olduğunu deyən deputat söyləyib ki, iki tərəf arasında enerji tərəfdaşlığı ilə bağlı saziş imzalanıb və hazırda da Azərbaycan-AB münasibətlərini tənzimləyən çoxşaheli sənəd üzərində iş gedir.



A.Mollazadə söyləyib ki, Prezident İlham Əliyevin Brüssele səfəri zamanı AB rəhbərliyi ilə görüşməsi ölkəmizin xarici ticarətində ən böyük tərəfdaşları ilə münsaibətlərinin daha da genişləndirəcək: "Bununla yanaşı səfər zamanı Azərbaycana qarşı olan haqsızlıq, beynəlxalq hüquq normalarının Ermənistan tərəfindən çox kobud şəkildə pozulmasını Avropa rəhbərlərinin və ictimaiyyətinin diqqətinə çatdırmaq imkanı yarandı. Bu baxımdan Brüssel səfərini çox önəmli hesab edir və əminəm ki, Azərbaycan Aİ ilə öz münasibətlərini məhz çoxşaheli sistem kimi formalaşdıracaq. Bu həm Azərbaycanın, həm də Avropa Birliyinin maraqlarına uyğundur".

Azərbaycanın bölgədə çox böyük rola malik olduğunu qeyd edən deputat ölkəmizin yaratdığı nəqliyyat dəhlizini xüsusi vurğulayıb. A.Mollazadə əlavə edib ki, Aİ ilə Azərbaycan arasında münasibətlər gələcəkdə hər iki tərəfə çox ciddi müsbət imkanlar yaradacaq: "Bununla yanaşı Azərbaycan üçün Avropanın mədəniyyət, təhsil sahəsində əməkdaşlıq çox önəmlidir. Biz öz dəyərlərimizi bu münasibət və əlaqələrlə daha da gücləndirə bilərik".

## Ermənistanda qazın qiymətini kim qaldırıb? Kreml, yoxsa "Qazprom"?



"Bizim, hakimiyyətə yaxın mənbəmiz Ermənistanla Rusiya arasında qaza qoyulan qiymət tarifi ətrafında necə danışıqlar aparıldığından danışıb. Danışıqlar prosesi çox maraqlı olub". SİA xəbər verir ki, bu barədə Ermənistanın "Jamanak" qəzeti yazıb. Belə ki, hökumətdə qazın qiymətinin artması barədə qərarının hələ də kim və hansı qurum tərəfindən verildiyi məlum deyil.

"Vitse-prezident Mqer Qriqoryan "Qazprom"un nümayəndələri ilə görüşüb, ona başa salıblar ki, qazın qiyməti siyasi məsələdir və Kremlə hesablaşmaq lazımdır. O, Kremlə getdi və orada da dedilər ki, bu iqtisadi məsələdir və "Qazprom"la danışıqlara gedilməlidir. Nəticədə hökumət hələ də bilmir ki, qazın qiymətini kim və hara qaldırıb", "Jamanak" yazıb.

## "Azərbaycan Avropa İttifaqı üçün mühüm və etibarlı tərəfdaşdır"



"Azərbaycan Avropa İttifaqı və quruma üz dövlətlərlə qarşılıqlı faydalı münasibətlər qurub. Bu əlaqələr uzun illər ərzində genişləndirilib və daha da möhkəmləndirilib. Təsadüfi deyil ki, Azərbaycan və Avropa İttifaqı rəsmiləri arasında keçirilən görüşlərdə qurumun rəhbərləri ölkəmizlə əməkdaşlığın əhəmiyyətini vurğulayırlar. Bu tezis hər zaman səsləndirlir ki, Azərbaycan Avropa İttifaqı üçün mühüm və etibarlı tərəfdaşdır. Hesab edirəm ki, məhz möhtərəm Prezidentimizin apardığı uğurlu siyasi kurs sayəsində ölkəmiz Avropa İttifaqı üçün əhəmiyyətli tərəfdaşa çevrilib". Bu fikirləri SİA-ya açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə bildirib ki, Azərbaycanın təşəbbüskarı və iştirakçısı olduğu regional və qlobal layihələr Avropa üçün xüsusi əhəmiyyətə malikdir: "Avropa ölkələri uzun illərdir ki, öz enerji təminatlarını daha etibarlı şəkildə həyata keçirmək üçün alternativ mənbələr axtarışında idilər. Məhz Azərbaycan bu çətin və məsuliyyətli missiyanın bir qismini öz üzərinə götürərək Avropanın enerji təhlükəsizliyinin təminatında qəti addımlar atdı. Şübhəsiz ki, Azərbaycanın təşəbbüskarı olduğu Cənub Qaz Dəhlizi və onun əsas seqmentləri olan TANAP, TAP gələcəkdə Avropanı daha etibarlı şəkildə "mavi yanacaq"la təmin edəcək".

"İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, bugünlərdə Azərbaycan Prezidentinin Belçikaya işgüzar səfəri və orada Avropa İttifaqının rəhbər şəxsləri ilə görüşü ikitərəfli əlaqələrin inkişafına mühüm töhfələr verəcək: "Möhtərəm Prezidentimizin Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskla görüşündə bir sıra mühüm məsələlər müzakirə edilib, Azərbaycanın regiondakı rolu qurum tərəfindən müsbət qiymətləndirilib. Ümumilikdə səfər zəngin məqamlarla yadda qalıb. Hesab edirəm ki, qeyd etdiyimiz məqamlar Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunu, siyasi çəkisini daha da artırır".

Vüqar Rəhimzadə vurğulayıb ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, ona görə də bu mövzuda irəli sürülən bəzi iddialar əsassızdır: "Avropa İttifaqı Şərq Tərəfdaşlığı Proqramında iştirak edən bütün dövlətlərin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Hazırda qurumla ölkəmiz arasında tərəfdaşlığa dair sənəd hazırlanır. Bu sənəddə əsas müzakirə mövzularından biri enerji və ticarətlə bağlıdır. Möhtərəm Prezidentimiz bu və digər müzakirələrdə Azərbaycanın milli maraqlarını hər şeydən üstün tutur. Ona görə də istər Avropa İttifaqı, istərsə də digər beynəlxalq təşkilatlar və xarici dövlətlərlə qurulan qarşılıqlı münasibətlərdə hər iki tərəfin maraqları nəzərə alınmalıdır. Ölkəmizin əsas tələbi də məhz budur".

# Muzeylər maddi-mənəvi sərvətimizdir

## *Bu il Beynəlxalq Muzeylər Günü "Muzeylər mədəniyyət mərkəzləri kimi: ənənələrin gələcəyi" devizi altında qeyd olunur*

***Hər il dünyada 18 May Beynəlxalq Muzeylər Günü kimi geniş qeyd edilir. Bu bayram, bir qayda olaraq, "Xalqlar arasında mədəni mübadilə və əməkdaşlığın inkişafına kömək" şüarı ilə keçirilir. Beynəlxalq Muzeylər Günü - Beynəlxalq Muzeylər Şurasının təşəbbüsü ilə 1977-ci ildə təsis olunub. Beynəlxalq Muzeylər Gününün əsas məqsədi muzeylərin cəmiyyətin həyatında nə qədər mühüm bir rol oynadığını göstərməkdir. Bu bayram dünyanın 150-dən artıq ölkəsində qeyd edilir. Beynəlxalq Muzeylər Günündə insanlar muzeyləri gəzərək, milli mədəniyyət və tarix haqqındakı məlumatlarını daha da zənginləşdirirlər.***



Bayram günü muzeylər öz qapılarını ziyarətçilərin üzünə açır və yaşından və vəzifəsindən asılı olmayaraq, insanlara pulsuz xidmət göstərilir. Tarixi, maddi və mənəvi abidələrlə zəngin olan ölkəmizdə də Beynəlxalq Muzeylər Günü




qeyd edilir. Bu peşə bayramı münasibətilə müxtəlif tədbirlər keçirilir, tariximizlə, mədəniyyətimizlə daha yaxından tanış olmaq məqsədi ilə mayın 18-də bütün muzeylərimizdə "açıq qapı" günü elan edilir.

Hər il müxtəlif devizlərlə keçirilən bu bayram muzey əməkdaşlarını birləşdirir və ictimaiyyətin diqqətini muzeylərə cəlb edir. Bu il ICOM tərəfindən "Muzeylər mədəniyyət mərkəzləri kimi: ənənələrin gələcəyi" devizi elan olunub. Belə ki, ənənəvi mədəniyyət mərkəzləri olmaqla yanaşı, muzeylər, həmçinin, öz kolleksiyalarının qorunması və interpretasiyasının yeni yollarını axtarırlar. Onlar həm gələcək nəsillər, həm də müasir auditoriya üçün əhəmiyyətli olacaq yeni muzey ənənələri yaradırlar. Artıq bu gün muzeylər ziyarətçilərin innovativ proqramların iştirakçısı ola biləcəyi interaktiv mərkəzlərə çevrilirlər.

Bu əlamətdar gün Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, ICOM Azərbaycan Milli Komitəsinin təşkilatçılığı və Park- Bulvar AVM-in dəstəyi ilə ölkəmizdə də təntənəli şəkildə keçiriləcək. Ölkəmizin 12 muzeyi - Azərbaycan Xalça Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi, Azərbaycan Dövlət Teatr Muzeyi, Azərbaycan İstiqlal Muzeyi, Milli Azərbaycan Tarixi Muzeyi, "İçəri Şəhər" Muzey Mərkəzi, Üzeyir Hacıbəylinin Ev-Muzeyi, Səməd Vurğunun Ev-Muzeyi, Bülbülün Memorial Muzeyi, Leopold və Mstislav Rostropoviçlərin Ev-Muzeyi, Azərbaycan Gömrük Tarixi Muzeyi bu deviz altında birləşərək, "Muzeylər Park-Bulvarın qonaqları" adlı 3 gün (17-19 may) ərzində keçiriləcək tədbirdə iştirak edərək, qonaqlara müxtəlif proqramlar təqdim edəcəklər.

### AZƏRBAYCANDA MUZEYLƏRİN TƏŞƏKKÜL TAPMASI

Azərbaycanda muzey işinin tarixi çox da qədim deyil. Azərbaycanın ictimai-siyasi və mədəni həyatında XIX əsrin ikinci yarısından etibarən sürətlə cərəyan edən proseslər muzey işinin təşkilinə təkan vermişdir. İlk belə muzeylərdən biri görkəmli ədib Cəlil Məmmədquluzadənin təşəbbüsü və yaxından iştirakı ilə XIX əsrin sonlarında Naxçıvanın Nehrəm kənd məktəbində təşkil olunmuşdur. Ötən əsrin əvvəllərində isə Bakıda, xalq məktəbləri müdiriyyəti nəzdində pedaqoji, həmçinin, Ümumrusiya Texniki Cəmiyyətinin Bakı şöbəsi nəzdində qapalı muzeylər yaradılmışdır. Lakin Nehrəm kəndindəki muzey istisna olmaqla, adları qeyd edilən məkanlar çarizmin maraqlarına xidmət etmişdir. Təsadüfi deyil ki, Azərbaycanda aşkar edilən qiymətli arxeoloji əşyalar Tbilisi, Moskva və Peterburq muzeylərinə göndərilmişdir.

Azərbaycanda muzeylərin təşəkkül tapmasının əsası XX əsrin ikinci onilliyinin əvvəllərində qoyulmuşdur. "Doğma diyarın öyrənilməsi muzeyi" adlanan ilk muzey 1920-ci ildə Bakıda, ilk memorial muzey isə 1938-ci ildə Şəkidə yaradılmışdır. Azərbaycanın dəyərli eksponatları 1920-ci ildə ilk muzey yaranana qədər Rusiya, Avropa, o cümlədən, Böyük Britaniya muzeylərini bəzəsə də, bu gün tariximiz və incəsənət nümunələrimiz dövlət muzeylərimizdə nümayiş olunur. Azərbaycanda muzey fondu ölkə milyonçularının sovet hakimiyyətinin ilk illərində müsadirə edilmiş sənət əsərləri əsasında yaradılmışdır. H.Z.Tağıyevə, M.Muxtarova, M.Nağıyevə, bir sözlə, Bakı milyonçularına məxsus qiymətli sənət əsərləri ilk muzeyimizin eksponatları olmuşdur.

### AZƏRBAYCANDA 200-DƏN ÇOX MUZEY FƏALİYYƏT GÖSTƏRİR

Azərbaycanda milli-mənəvi dəyərlərimizə, o cümlədən, muzey işinə daim dövlət qayğısı olmuşdur. Ölkəmizdə bu sahənin inkişafı, muzeylər şəbəkəsinin yaradılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderimiz həmişə muzeylərə böyük önəm vermiş, bu sahəyə də diqqət və qayğı ilə yanaşmışdır. Xalqımızın böyük oğlu Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə respublikamızda muzeylərin, xüsusilə, tarix-diyarşünaslıq, xatirə, ev-muzeylərinin və digər profilli muzeylərin yaradılması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə mühüm tədbirlər həyata keçirmişdir. Qısa müddətdə Azərbaycanın 60-dək rayonunda tarix-diyarşünaslıq muzeyi yaradılmışdır. Dahi Rəhbərimizin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra mədəniyyət sahəsi, həmçinin, muzey işi öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Ulu Öndərin təşəbbüsü ilə 1993-cü ildə Nazirlər Kabinetində muzey işçilərinin respublika müşavirəsi keçirilmişdir. 1994-cü ildə bu müşavirənin materialları əsasında "Respublikada muzey işinin vəziyyəti və onun yaxşılaşdırılması haqqında" qərar qəbul edilmişdir. 2000-ci il martın 24-də qüvvəyə minmiş "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanunu ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi əsaslarını müəyyən edir və bunlarla bağlı münasibətləri tənzimləyir. Bu gün Prezident İlham Əliyev tərəfindən bu sahədə uğurlu addımlar atılır, böyük layihələr reallaşır. Hazırda Azərbaycanda 200-dən çox muzey fəaliyyət göstərir.

Dövlətimizin başçısı İlham Əliyevin "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində İstiqlal Muzeyinin yaradılması və İstiqlal Abidəsinin ucaldılması haqqında" 2006-cı il 18 dekabr və "Müasir İncəsənət Muzeyinin yaradılması haqqında" 2006-cı il 19 dekabr tarixli sərəncamları muzey işinə dövlət qayğısının aydın təzahürüdür. Prezident İlham Əliyevin "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" 2007-ci il 6 mart tarixli Sərəncamı, 2009-cu il 22 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı" və digər normativ aktlar bu sahədə hüquqi bazanın formalaşdırılmasının əyani ifadəsidir. Həmin Sərəncama əsasən, Azərbaycan Xalçası və Xalq Tətbiqi-Sənət Dövlət Muzeyinin müasir tələblərə, beynəlxalq standartlara cavab verməsi üçün yeni binada fəaliyyət göstərməsi məqsədəuyğun hesab edilmiş, muzeyin yeni binası tikilmişdir. Son dövrlər yaradılan muzeylərin sırasında ölkənin əksəriyyət şəhər və rayonlarında inşa edilmiş Heydər Əliyev Mərkəzlərini xüsusi qeyd etmək lazımdır.

Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük səyi nəticəsində "Şirvanşahlar Sarayı Kompleksi", Qız Qalası və Qobustan Milli Tarix-Bədii Qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmişdir. Fondun həyata keçirdiyi müxtəlif layihələr çərçivəsində Qarabağ muzeyləri haqqında məlumatlar mötəbər beynəlxalq təşkilatlara çatdırılır. Azərbaycan dövlətinin uğurlu mədəniyyət siyasəti nəticəsində, son illər muzeylərimizin dünyanın nüfuzlu muzeyləri ilə əlaqələri genişlənmiş, bu sahədə beynəlxalq əməkdaşlıq sahəsində yeni nailiyyətlər əldə edilmişdir.

***ZÜMRÜD***

# Yeni layihələr turistləri ölkəmizə daha çox cəlb edir



***Dövlətin turizm sahəsinə göstərdiyi diqqət və qayğısının nəticəsidir ki, Azərbaycan dünyada artıq turizm məkanı kimi tanınır. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə də turizmin daha da inkişaf etdirilməsi əksini tapıb. Məqsədyönlü səylər nəticəsində, Bakı şəhəri qısamüddətli uçuş məsafəsində yerləşən və 90 milyondan artıq əhalinin yaşadığı 26 şəhəri əhatə edən potensial turizm, tələbat qrupundan əhəmiyyətli dərəcədə, bazar payı əldə edə biləcək. Bütün bunlarla yanaşı, 2025-ci ilə qədər Avropanın iri şəhərlərini əhatə edən birbaşa uçuşların sayı 49-dan 100-ə çatdırılacaq. Bütün görülən işlərin və həyata keçirilən tədbirlərin nəticəsidir ki, Azərbaycana gələn turistlərin sayında nəzərəçarpacaq dərəcədə artım müşahidə olunub. Dövlətin siyasəti və ünvanlı layihələr də nəticəsini verir.***



Viza rejiminin sadələşdirilməsi ölkəyə turist axınının artmasına təsirini göstərir. "ASAN Viza" vasitəsi ilə hava limanlarında 376 mindən çox turistə viza verilib. Artıq bir ildir ki, Azərbaycanın beynəlxalq hava limanlarında "ASAN Viza" sistemi vasitəsilə Birləşmiş Ərəb Əmirlikləri, Koreya Respublikası, Çin, İran, İsrail, İndoneziya, Küveyt, Qətər, Malayziya, Oman, Səudiyyə Ərəbistanı, Sinqapur, Türkiyə və Yaponiya vətəndaşlarına yerində vizaların verilməsi təmin edilir.

Ümumilikdə, "ASAN Viza" sistemi vasitəsilə 95 ölkədən olan əcnəbilərə elektron vizaların verilməsi həyata keçirilir. "ASAN Viza", fəaliyyətə başladığı qısa müddət ərzində, Azərbaycana səyahət üçün müraciət edən 1 milyon 222 mindən çox əcnəbiyə viza verilib. Bu il Azərbaycana elektron viza üçün müraciət edən turistlərin sayı ötən ilin analoji dövrü ilə müqayisədə 72 faiz artıb.

### UEFA-NIN AVROPA LİQASININ FİNAL OYUNU İLƏ ƏLAQƏDAR ÖLKƏYƏ GƏLƏCƏK XARİCİ QONAQLARIN MƏLUMATLANDIRILMASI MƏQSƏDİLƏ VEB-SAYT HAZIRLANIB

Hazırda UEFA Avropa Liqasının finalı ilə bağlı işlər davam edir. "ASAN Viza" əməkdaşlarının finala sayılı günlər qalmış gücləndirilmiş iş rejimində fəaliyyət göstərmələri planlaşdırılır. Onu da vurğulayaq ki, mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək UEFA-nın Avropa Liqasının final oyunu ilə əlaqədar ölkəyə gələcək xarici qonaqların qabaqcadan məlumatlandırılması məqsədilə veb-sayt da hazırlanıb. İnformativ xarakter daşıyan vebsaytda azarkeşləri maraqlandıra biləcək suallara xüsusi bölmələr üzrə cavablar yerləşdirilib. Bakıya uçuş həyata keçirən hava yolları şirkətlərinin birbaşa və çarter uçuşları barəsində məlumat yerləşdirilən saytda viza əldə etmək qaydaları və şərtləri, hotellər, oyunun keçiriləcəyi Bakı Olimpiya Stadionu və burada təşkil olunacaq təhlükəsizlik tədbirləri barədə dolğun məlumat verilir.

Turistlərin ölkəyə gəlişi, yerləşdirilməsi və Azərbaycanda qalma müddəti ərzində təhlükəsizlik də daxil olmaqla digər bütün məqamlar dövlət və özəl biznesin təmsilçiləri tərəfindən diqqətlə düşünülüb. Həmçinin, dünya üzrə ölkələrin reytinqində terror təhlükəsinin, ən az, olduğu ölkələr sırasında Azərbaycanın adı ilk sıralardadır.

### AZƏRBAYCANIN MÜSBƏT TURİZM İMİCİNİN YARADILMASI İSTİQAMƏTİNDƏ APARILAN MƏQSƏDYÖNLÜ TƏDBİRLƏR ÖLKƏYƏ GƏLƏN TURİSTLƏRİN SAYININ ARTMASINA TÖHFƏSİNİ VERİR

Bu gün turizm sektorunda müsbət göstəricilər var. Ötən il bu sahədə 6 faiz artım əldə olunub və ölkəmizə 2 milyon 850 min xarici qonaq gəlib. 2018-ci ildə Avropa İttifaqına üzv ölkələrdən gələn turistlərin sayı 6,7 faiz artaraq, 112,5 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 3,8 faiz artaraq, bir milyon nəfərdən çox olub. Aparılan hesablamalara görə, bu xarici qonaqlar ölkəmizdə 2 milyard dollar pul xərcləyiblər.

Təbii ki, ölkəmizdə təhlükəsizliyin, əmin-amanlığın hökm sürməsi, beynəlxalq tədbirlərin təşkili, qlobal forumlar, humanitar forumlar, mədəniyyətlərarası dialoq forumları, iqtisadi forumlar, idman yarışları və s. turistlərin ölkəmizə axınına səbəb olub.

Onu da, vurğulayaq ki, dövlət büdcəsinin 2025-2030-cu illərə kimi turizm sektorunun inkişafı hesabına genişləndirilməsi nəzərdə tutulur. Azərbaycanın müsbət turizm imicinin yaradılması və turizm məkanı kimi tanıdılması istiqamətində aparılan məqsədyönlü tədbirlər ölkəyə gələn turistlərin sayının artımına öz töhfəsini verir.

Bu gün Azərbaycan dünyada sabitlik adası olaraq tanınır. Təbii ki, ölkənin inkişafında bu sabitlik mühüm rol oynayır. "Yaxın tarix, əyani şəkildə göstərdi ki, sabitlik pozulanda, ölkələr çox pis vəziyyətə-idarəolunmaz vəziyyətə düşür, iqtisadiyyat çökür, sənaye iflic olur, insanlar əziyyət çəkir və sonra bu vəziyyətdən çıxmaq üçün onilliklər lazım olur" deyən dövlət başçısı bildirib ki, Azərbaycanın uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir: "Çünki bu siyasət xalqımızın rifah halının yaxşılaşmasına hesablanıb. Bu siyasət ölkəmizin güclü dövlətə çevrilməsinə hesablanıb. Məhz bu siyasət nəticəsində, bu gün Azərbaycan dünyanın müxtəlif kürsülərindən öz sözünü açıq deyir, öz müstəqil siyasətini aparır və öz maraqlarını tam şəkildə qoruyur".

Bəli, sabitlik adası kimi tanınan Azərbaycanda dövlətin turizmə diqqət və qayğısı bu sahənin gələcək inkişafına zəmin yaradır.

***Nəzakət ƏLƏDDİNQIZI***




# Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının iclası keçirilib

Dünən Azərbaycan Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının növbəti iclası keçirilib. SİA-nın verdiyi məlumata görə, toplantını açan komissiya sədri, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli gündəlikdə duran məsələlər barədə məlumat verib. Komissiya ilk olaraq Bakı şəhər sakini, kiçik sahibkar Nurtəkin Məmmədovanın "Baku.WS" Xəbər Portalına qarşı şikayətini araşdırıb. Şikayətçinin sayt barədə iradları və bu iradların qarşılığı olaraq irəli sürdüyü tələblər uyğunsuz sayılıb. Məsələ baxılmamış saxlanılıb.

İclasda Bakı şəhər sakini Cavanşir Rüstəmovun "Milletinsesi.info", "Teref.az" və "Teref.info" saytlarına qarşı şikayəti də araşdırılıb. Tərəflər şikayət doğuran məqamların aradan qaldırılması üçün razılığa gəliblər.

Müzakirə edilən növbəti məsələ Bakı Şəhər İcra Hakimiyyəti Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin baş məsləhətçisi Ramiz Quliyevin "Milliyol.az" və "Bizimxeber.az" saytlarına qarşı şikayəti olub. Şikayət doğuran məqamların aradan qaldırılması üçün razılığa gəlinib. Ağdaş rayon sakini, fərdi sahibkar Məhəmməd Əliyevin "Media-Press.org" saytı barədə şikayətində ciddi ittihamlar yer aldığından və sayt təmsilçisi hərəkətləri barədə arqumentlər təqdim etmədiyindən, məsələ geniş araşdırılmaq üçün MŞ-nin "Reket jurnaistika"ya qarşı mübarizə Komissiyasına yönləndirilib.

# Dörd ayda Azərbaycana 170 ölkədən 848,4 min əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, bu ilin yanvar-aprel aylarında Azərbaycana dünyanın 170 ölkəsindən 848,4 min və ya 2018-ci ilin yanvar-aprel ayları ilə müqayisədə 0,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, gələnlərin 27,3 faizi Rusiya Federasiyası, 26,8 faizi Gürcüstan, 11,1 faizi Türkiyə, 8 faizi İran, 3,8 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,8 faiz olmaqla Ukrayna və Hindistan, 1,4 faizi Pakistan, 1,3 faizi İraq, 16,6 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub. Gələnlərin 69,5 faizini kişilər, 30,5 faizini isə qadınlar təşkil edib. Ölkəmizə yanvar-aprel aylarında gələnlərin sayında daha çox artım Misir (2,2 dəfə), Səudiyyə Ərəbistanı (1,9 dəfə), Hindistan (1,8 dəfə), Türkmənistan (1,8 dəfə), Çin (1,6 dəfə), Yaponiya (37,1 faiz), Kanada (31,8 faiz), Pakistan (28,8 faiz), Gürcüstan (22,6 faiz), Polşa (20,8 faiz) və Cənubi Koreya (20,5 faiz) vətəndaşları arasında qeydə alınıb.



2019-cu ilin yanvar-aprel aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 7 faiz artaraq 34,2 min nəfər, Körfəz ölkələrindən gələnlərin sayı 27,5 faiz azalaraq 142,9 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 1 faiz azalaraq 282 min nəfər olub. Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 61,1 faizi dəmir yolu və avtomobil, 38,1 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə edib.

***Ötən il erməni xalqı "küçə demokratı" Nikol Paşinyanı hakimiyyətə gətirərkən, elə zənn etdi ki, küçədən xalqla "bir olubsa", hər şey yaxşı olacaq. Ancaq sən saydığını say, gör sizin küçədən gətirdiyiniz küçə təfəkkürlü Nikolunuz nə sayır? Dövlət siyasətindən xəbərsiz olan Nikol Paşinyan hakimiyyətə gəldiyi gündən erməni xalqı əvvəlki illərə yalvarır. 2019-cu il işğalçı ölkəyə bahalaşma ilə kimi girdi. Bu da səbəbsiz deyildi. Ermənistanda bu, baş verməli idi. Söhbət Moskvanın siyasi təzyiq vasitələrindən gedir. Belə ki, Nikol fəaliyyətə başladığı ilk gündən, başladı Rusiyaya qarşı sərsəm bəyanatlar ünvanlamağa.***



# Ermənistan yenə də cəncəllərə doğru

## *Və ya Paşinyan uğursuz mübarizə siyasəti ilə özünü cəncələ salıb*



Rusiya prezidenti Vladimir Putinin Ermənistanın baş naziri Nikola dəfələrlə xəbərdarlıq ismarıcları və mesajları göndərməklə, ona bu oyunlardan əl çəkməyi bildirdisə də, Paşinyan yenə də sərsəm bəyanatlar verməkdən çəkinmədi. Belə bir atalar sözü var: keçinin buynuzu qaşınanda, çobanın çomağına sürtünər. Elə bu səbəbdən də V.Putin Yeni il münasibətilə bütün MDB ölkələri prezidentlərinə, o cümlədən, baş nazir əvəzi Paşinyana deyil, Ermənistan prezidenti Armen Sarkisyana təbrik göndərdi. Üstəlik, Ermənistanın eks-prezidentləri - Serj Sarkisyanı və hazırda həbsdə olan Robert Koçaryanı da təbrik etdi. Beləliklə, Paşinyan hakimiyyətinin kritik günləri başladı.

### Rusiya Ermənistanın yeni rəhbərliyinə ilk gündən yerini göstərdi

Elə bu səbəbdən də, Moskva səfərlərindən həmişə əli ətəyindən uzun gələn Paşinyan başqa münasibət də görə bilməzdi. Əgər Rusiyanın maraqlarını tapdayıb, küçə siyasəti yürüdəcəksən, o zaman Moskvanın sərt münasibətinə də tuş gələcəksən. Eyni zamanda, digər bir faktor isə, Rusiyaya Ermənistanın davranışlarına ona görə dözür ki, regional maraqlarını qorusun, keçmiş SSRİ məkanında əsas söz sahibi olmaq kimi qüdrətini, Cənub Qafqazın təhlükəsizliyinin ondan asılı olduğunu nümayiş etdirsin və sairə. Bir sözlə, bütün bu deyilənlər, bir daha onu göstəri ki, Paşinyan iqtidarı üçün, artıq kritik günlər elə 2019-cu ilin ilk günlərindən başlayıb, ilin sonuna kimi davam edəcək.

Rusiyan Ermənistana satdığı qazın qiymətini 1-dən artıracağını bildirirdi. Çünki ölkədə qaz təchizatı və qazpaylayıcı sistem, bütünlüklə, Rusiyanın "Qazprom" şirkətinin mülkiyyətidir. Ermənistan iqtisadiyyatının digər sahələri Rusiyanın nəzarətindədir.

Beləliklə, bütün bu faktlar onu göstərir ki, Ermənistanın iqtisadi sahədə heç bir manevr imkanları yoxdur. Avropa İttifaqının Ermənistana ayırdığı milyonlarla vəsait Rusiyadan alınan qaza sərf edilərsə, Paşinyanın sosial islahatlar üçün ümid etdiyi maliyyənin səmərəliliyi olmayacaq. Nəticədə, xalq yenidən ağır sosial tələblərlə etiraz aksiyalarına çıxacaq. Baş verən proseslər göstərir ki, Paşinyanın islahat vədləri heç bir real əsaslara malik deyil.

Doğrudur, Qərb, Paşinyana maliyyə və siyasi dəstək naminə, Rusiyanın orbitindən çıxması üçün vədlər verir. Kreml isə çalışır ki, Paşinyanın qərbpərəst siyasətinin qarşısını alsın. Bununla belə, Ermənistanda siyasi-iqtisadi vəziyyət gərgin olaraq qalır. Ümumiyyətlə, bu ölkədə əsaslı islahatlar mümkün deyil. İlk növbədə, bu ölkə işğalçı siyasətinə görə blokadada olan ölkədir və Rusiyanın forpostudur. Bu baxımdan, Yerevanın Moskvaya qarşı demarşı, ona baha başa gələ bilər.

Politoloqların sözlərinə görə, Paşinyanın oyuncaq bir lider olmasını, artıq dünya ölkələri və ən əsası, Rusiya yaxşı bilir.

### Ermənistan - iflasdan-iflasa

Bu gün işğalçı Ermənistanın sosial-iqtisadi cəhətdən vəziyyətinin daha da pisləşdiyinin səbəbi də, məhz yeni baş nazir Nikol Paşinyanın sələfi Sarkisyandan fəqrlənməyən siyasəti, eləcə də, iqdisadi və hərbi savadsızlığı ilə bağlıdır. Nikol Paşinyan baş nazir seçilərkən, xalqa müraciətində demişdir ki, bundan sonra Ermənistanın iqdisadiyyatı yüksələn xətlə inkişaf edəcək və bütün sferalarda islahatlar aparılacaq. Ancaq Paşinyanın hakimiyyət dönəmini təhlil edən siyasi şərhçilər və araşdırmaçı erməni yazarlar ölkədə heç bir inkişaf və islahatların getmədiyini qeyd edirdi. Ancaq sabiq prezident Serj Sarkisyanın dövründən qalan tənəzzül, iflas, korrupsiya və bürokratik əngəllər bu gün də davam etməkdədir. Ermənistanın, geridə qalmış ölkə kimi, hər zaman Rusiyanın köməyi hesabına yaşadığı sirr deyil. İndi isə Nikol Paşinyanın Avropa dairələrinin köməyinə güvənərək, yardım istəməsi də ölkənin iflas həddində olduğunu aydın surətdə göstərir.

Bir sözlə, acınacaqlı siyasi situasiya ilə üzləşən N.Paşinyan, necə deyərlər, Ermənistanı iflasdan-iflasa sürükləməkdədir. Bu, faktdır ki, Ermənistanın heç bir sərvəti olmayan, qonşu ölkələrlə iqdisadi potensialı yoxdur və nədən qazanıb iqdisadiyyat quracağı bəlli deyil. Nə qədər ki, Ermənistan Azərbayanın işğal altındakı torpaqlarını azad etməyəcək, bir o qədər ağır iqtisadi və siyasi məhrumiyyətlərə, məşəqqətlərə düçar olacaq. Bunu dərk etmək çətin olmasa da, N.Paşinyan anlamaq istəmir. Çünki müstəqil deyil, böyük güclərin və erməni lobbisinin əlində bir oyuncaqdır. Qondarma gedişlər etməklə, bu ölkə, itirməkdə olan siyasi imicini möhkəmləndirməyə çalışır.

Ümumiyyətlə, real vəziyyət onu sübut edir ki, Ermənistanın bir dövlət olaraq mövcudluğu və gələcəyi Dağlıq Qarabağ amilindən asılıdır. Çünki bu dövlətin gələcəyi Azərbaycanla qonşuluq prinsiplərinə əməl etməkdən keçir. İşğalçı Ermənistanın yeni rəhbərliyi Paşinyan da sələfləri kimi, səbəbi qoyub nəticələrlə uğursuz mübarizə aparır. Deməli, yekun eyni olacaq, daha dəqiqi, daha pis olacaq... Bu isə, bir daha o deməkdir ki, Ermənistanın sosial bəlalardan xilas yolu rəsmi Bakıdan keçir.

**A.SƏMƏDOVA**








# Cəmil Həsənli terrorçuları müdafiə edir!

## Və ya "Milli Şura"nın sədri vətəndaşlıq amilini terrorçuluqla necə səhv salır?



***"Milli Şura"nın sədri Cəmil Həsənlinin zaman-zaman sərsəm iddialarla çıxış etməsi adi hala çevrilib. Belə ki, onun gah nala, gah mıxa döyəcləyərək, hakimiyyətə qarşı qarayaxma kampaniyaları aparması, həm də nə qədər şərbaz və böhtançı olduğunu sübuta yetirir. Azərbaycandan kənarda fəaliyyət göstərən qərəzli media qurumlarına müsahibələrində yalanın birini bir qəpikdən sıryan C.Həsənli hakimiyyətə qarşı ittihamlarını, o dərəcədə artırır ki, hətta ondan müsahibə alan xarici media qurumları belə, bu yalanlardan təəccüblənirlər.***

### Cəmil Həsənliyə görə, 30-a yaxın terrorçunun "silahı yerə qoy və təslim ol!" əmrinə tabe olmamalarına görə, cavab atəşi ilə susdurulmaları qanunsuzuymuş?

Bu dəfə "Amerikanın səsi"nə müsahibə verən "Milli Şura"nın sədri öz yalanlarını Azərbaycan dövlətinin terrorla mübarizəsinə kölgə salaraq, xalqa və dövlətə qarşı silahlı müqavimət göstərmək cəhdində olmuş, qanunların tələblərinə uymayaraq, müxtəlif silahlı qruplaşmalarda fəaliyyət göstərmiş şəxslərin ölümləri üzərində sırımağa çalışıb. Onun sərsəmlikdən və boşboğazlıqdan doğan dar düşüncəsinə görə, demə, Azərbaycanda terror küləyi əsdirməyə çalışan 30-a yaxın terrorçunun "silahı yerə qoy və təslim ol!" əmrinə tabe olmamalarına görə, cavab atəşi ilə susdurulmaları qanunsuzuymuş və s. Daha dəqiq desək, fakt budur ki, nəinki Azərbaycanda, eləcə də, istənilən ölkədə təhlükə saçan terrorçu ilə hüquq-mühafizə orqanlarının təslim olmaq çağırışlarına, əmrinə cavab vermirsə, silahı istər vətəndaşları, istərsə də mühafizə orqanlarını hədəfə çevirirsə, hüquqi baxımdan, həmin cinayətkar yerindəcə güllələnir. Belə olan halda, C.Həsənlinin absurd iddiası, yəni guya 30-a yaxın insanın (terrorçunun) məhkəməsiz və istintaqsız güllələnməsi fikirləri məntiqsiz olduğu qədər, həm də gülüncdür.

### ABŞ hüquq-mühafizə orqanları silah təhdidi olmasa belə, yəni özlərinə qarşı ən cüzi təhlükə hiss edərkən, qarşısındakı insanlara atəş açaraq, onları qətlə yetirir

Bu zaman C.Həsənli elə müsahibə verdiyi "Amerikanın səsi"nə ABŞ-da bir ildə nə qədər silahlı cinayətkarların yerindəcə güllələnməsi faktı barədə niyə danışmayıb? Çünki digər ölkələrdən fərqli olaraq, ABŞ hüquq-mühafizə orqanları silah təhdidi olmasa da, yəni özlərinə qarı ən cüzi təhlükə hiss edərkən, qarşısındakı insanlara atəş açaraq, onları qətlə yetirir. Görəsən, qoca və ağlını itirmiş professor yalan iddialarını danışarkən, bu barədə düşünübmü? Əlbəttə ki, yox. Çünki bunu desə, zatən "Amerikanın səsi" həmin fikirləri ictimailəşdirməzdi, yaxud C.Həsənli ilə müsahibəsini yarıda qoyardı. Belə bir sərsəm iddia Həsənlinin dünyagörüşünün olmadığını, təcrübəsiz və naşı siyasətbaz olduğunu kifayət qədər isbatlayır.

Yeri gəlmişkən, o da bəllidir ki, bu gün Azərbaycan xalqı Ermənistanın təcavüzkar və işğalçılıq siyasətindən əziyyət çəkir, işğal nəticəsində 1 milyondan çox vətəndaşımız doğma yurd-yuvalarından məhrum olublar, onların hüquqları pozulub, xüsusilə, Ermənistanla yanaşı, Qarabağdakı terrorçu rejim yüzlərlə insanlarımıza qarşı terror siyasəti yürüdüb, onları amansızlıqla qətlə yetirib. Görəsən, C.Həsənli "Amerikanın səsi"nə bu barədə niyə danışmayıb?

### Cəmil Həsənli Qarabağda öldürülmüş terrorçuları da "siyahısına" əlavə edəcəkmi?

Bütün dünya Qarabağın Azərbaycanın ərazisi olduğunu qəbul edir və oradakı ermənilər də Azərbaycan vətəndaşı hesab olunurlar. Əgər separatçı ermənilər işğal olunmuş ərazilərimizdən azərbaycanlılara qarşı atəş açırlarsa, mülki vətəndaşlarımızı, qadın və qocalarımızı, uşaqlarımızı, torpaq sahələrində çalışan zəhmətkeş insanlarımızı terrorizə edirlərsə və bunun müqabilində Azərbaycan əsgəri terrorçulara cavab atəşi açaraq, onları məhv edirsə, deməli, bu doğru addım hesab olunan bilməz?! Əgər C.Həsəni belə dar düşüncəyə sahibdirsə, onda iki ildə 30-a qədər terrorçunun əmrə tabe olmamalarına görə yerindəcə güllələnməsi siyahısına Qarabağdakı erməni terrorçularının da sayını əlavə etsin. Axı onlar da Azərbaycan vətəndaşlarıdırlar! Bu, həm də onun "nə qədər say çox olsa, bizim xeyrimizədir" tipli axmaq (!) ideyasına, necə deyərlər, "plyus" olar, sabah-birigün də, aparıb qoyar qərəzli insan haqları təşkilatlarının qabağına və bundan qrantlar qazanar. Bax, budur belələrinin xisləti - öz mənfəətləri üçün terrorçuları "vətəndaş" amili ilə dəyişib, qara-qışqırıq salmaq, həyasızlıq etmək ənənələri!

**Rövşən NURƏDDİNOĞLU**

# Antimilli qüvvələrə nifrət artacaq

***Məlum olduğu kimi, Brüsseldə Avropa Şərq Tərəfdaşlığı Sammiti zamanı 3-4 nəfər erməni lobbisindən maliyyələşən antimilli qüvvələr aksiya keçirtməyə cəhd ediblər. Həmin şəxslər ölkəmizin milli və dövlətçilik maraqlarına qarşı çıxmaqla və müxtəlif pozucu şüarlar səsləndirməklə, yarıtmaz və şivən qrup üzvləri olduqlarını nümayiş etdiriblər. Söhbət etdiyimiz müsahiblərimiz satqın və xəyanət yolu tutan xaricdəki "söyüş qrupu"nun əməllərinin cavabsız qalmayacağını, gec və ya tez layiq olduqları cəzanı alacaqlarını bildirdilər.***

### AMİP funksioneri Əli Orucov: "Siyasi mühacir"lər qınaq və tənqid hədəfinə tuş gəliblər"



- Mən Prezident İlham Əliyevin Brüsselə səfəri zamanı bir qrup azərbaycanlı mühacirin etiraz aksiyası keçirməyə cəhd etmələrini düzgün hesab etmirəm. Ermənilərin və digər millətlərin nümayəndələrinin gözü önündə bu cür etiraz aksiyası keçirmək yolverilməzdir. Unutmaq olmaz ki, Cənab İlham Əliyev Azərbaycan dövlətini təmsil edir və dövlətimizin başçısıdır. Aksiya keçirməyə cəhd etmək, məhz düşmənlərimizin maraqlarına xidmət edən addımdır ki, biz bunu qətiyyətlə pisləyirik. Mübarizə sivil yollarala və etik çərçivədə aparılmalıdır. Hesab etmirəm ki, bir qrup mühacir azərbaycanlının atdığı bu xoşagəlməz addımlardan hansısa dividend qazanmış olsunlar. Əksinə, "siyasi mühacir"lər qınaq və tənqid hədəfinə tuş gəldilər. Çalışmaq lazımdır ki, düşmənçiliyə və nifrətə yer olmasın.

### Təkamül partiyasının sədri Teyyub Qənioğlu: "Bu, çox yanlış mövqedir"



- Brüsseldə 3-4 nəfərin aksiya keçirtməyə cəhd etmələrini düzgün hesab etmirəm. Müxalifət iqtidara qarşı müəyyən mübarizə apara bilər, amma bu mübarizənin sivil yollarıolmalıdır. Əgər sənin mübarizən ölkənin imicinə xələl gətirəcəksə, bunu etməyə ehtiyac yoxdur və bu, çox yanlış mövqedir. Yəni xaricdə oturub öz ölkə rəhbərinə qarşı bu cür xoşagəlməz aksiyaların keçirilməsinə cəhd etmək kökündən yanlışdır. Onların bu cür xoşagəlməz hərəkətləri ölkəmizin nüfuzuna xələl gətirir. Qətiyyətlə deyə bilərəm ki, "siyasi mühacir"lərin bu cür hərəkətləri yolverilməzdir. Çünki Azərbaycanı istəməyən və ölkəmizə qarşı məkrli qüvvələr var. Həmin məkrli xarici qüvvələr də Azərbaycanı nüfuzdan salmaq istəyirlər. Belə olan halda isə, bu qüvvələrin gözü qarşısında 3-4 nəfər şəxsin bu cür xoşagəlməz hərəkətlər etmələri düzgün deyil.

**GÜLYANƏ**

# "Artıq əsəblər tarıma çəkilib və bölgədə müharibə riski artır"



***"ATƏT-in Minsk Qrupu həmsədrlərin son bəyanatının müsbət tərəfi münaqişə tərəflərinin danışıqlara dəvət edilməsi və danışıqlar formatının müəyyənləşdirilməsidir. Paşinyan tez-tez qondarma separatçı rejimin danışıqlara dəvət edilməsi və danışıqlar formatının dəyişdirilməsini ilə bağlı fikirlər irəli sürürdü. Hətta təkidlə bildirirdi ki, bu format olmasa, danışıqlara getməyəcək. Amma həmsədrlərin son bəyanatı bir daha təsdiq etdi ki, danışıqlar yalnız Azərbaycan və Ermənistan arasında aparılmalıdır". Bunu SİA-ya politoloq Qabil Hüseynli deyib.***

Politoloqun sözlərinə görə, bəyanat göstərdi ki, ATƏT-in Minsk Qrupu da Azərbaycanın mövqeyini müdafiə edir: "Amma bütövlükdə proseslərin sonrakı inkişafı, xüsusilə ərazi bütövlüyü məsələsi ilə millətlərin öz müqəddəratının təyin etməsi prinsipi çox ciddi sürətdə vurğulanır. Bəyanatda ərazi bütövlüyü məsələsi ön plana çəkilir".

Politoloq qeyd edib ki, Avropa İttifaqı, ATƏT-in Minsk Qrupu qabaqcadan irəli sürülən şərt olmadan tərəflərin əvvəlki formatda danışıqlara getməsini tövsiyə və hətta tələb edir: "Bu isə Paşinyanın səfeh fikirlərinin alt-üst edilməsi deməkdir. Bütün bunlar bir daha göstərir ki, şərt qoyulmadan danışıqlara başlanılmalıdır. İndi hər şey Ermənistanın Minsk Qrupunun tələbinə necə cavab verməsindən asılı olacaq".

Ermənistanın bundan sonra da qeyri adekvat addımlar atmasının istisna edilmədiyini dilə gətirən Q. Hüseynli vurğulayıb ki, çünki Paşinyan dəfələrlə bildirib ki, o, Qarabağ ermənilərinin adından danışa bilməz: "Bu, əlbəttə ki boşboğazlıqdır. Əgər Ermənistan ordusu işğal prosesində iştirak edibsə və Azərbaycanın 20 faiz torpaqları onların nəzarəti altındadırsa o zaman Paşinyanın fikirləri onun nə qədər prinsipsiz olduğunu aydın şəkildə ortaya qoyur". Azərbaycan və Ermənistan dövlət başçılarının görüşünə gəlincə, politoloq bildirib ki, Azərbaycan tərəfi həmsədrlərin bəyanatını müsbət qarşıladığını bildirsə də, Ermənistan tərəfi hələ də buna reaksiya verməyib: " Əgər qısa zamanda Ermənistan tərəfindən cavab verilməsə, bu o deməkdir ki, onlar tamamilə başqa taktika seçiblər və danışıqlar prosesinə etiraz edirlər. Azərbaycan bu gündən başlayaraq çox geniş miqyaslı təlimlərə başlayıb. Bu o deməkdir ki, ölkəmiz Paşinyana zaman vermək fikrində deyil, artıq əsəblər tarıma çəkilib və bölgədə müharibə riski artır".

**Ceyhun Rasimoğlu**

## Qaradağda mikroavtobus yanıb



Qaradağ rayonunda yanğın baş verib. Hadisə "Ford" markalı mikroavtobusda qeydə alınıb. Nəticədə mikroavtobusun mühərrik hissəsi yanıb, qalan hissəsi yanğından mühafizə olunub. Alov yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.

## Ukraynanın xarici işlər naziri istefa verdi

Ukraynanın xarici işlər naziri Pavel Klimkin istefa verib. SİA Ukrayna KİV-nə istinadən xəbər verir ki, nazir Zelenskinin andiçməsindən dərhal sonra istefa ərizəsini təqdim edəcək. Pavel Klimkinin Radaya seçkilərə qatılacağı məlumdur.

# Avropadakı antimilli satqınlar məhkəmə qarşısına çıxarılacaq

*Parisin 7-ci Döngə Prokurorluğu V.İsgəndərlinin, Amsterdamın polis birliyi isə O.Teymurxanın vətəndaşlıqdan məhrum edilmələri ilə bağlı məhkəməyə mürarciət etməyə hazırlaşırlar*

***Mövcud faktlar və reallıqlar ondan ibarətdir ki, Azərbaycan cəmiyyətinin dağıdıcı müxalifətə və xaricdəki "söyüş qrupu"na dərin nifrəti var. Amma buna baxmayaraq, alınlarına satqın və xəyanətkar emblemi yapışdırılan ünsürlər ictimaiyyətin mənfi münasibətindən nəticə çıxarmırlar. Yəni öz amplualarından əl çəkmirlər. Yenə də sərsəm, anormal fikirlərini yaymaqda davam edirlər. Hər dəfə də, müxalif ünsürlərin yayadıqları şər və böhtan xarakterli məlumatlara dərhal xaricdəki qüvvələr reaksiya verir, hay-küylü bəyanatlar və hesabatlar yayırlar. Buna misal kimi, "Freedom House", "Soros" və bu kimi digər qərəzli məkr yuvalarını göstərmək olar. Əməkdaşlıq tələblərinə uyğun olaraq, xaricdəki "söyüş qrupu"nun üzvləri qərəzli təşkilatların və dağıdıcı müxalifətin ölkəmiz və xalqımız əleyhinə yönələn açıqlamalarına, eləcə də, şər və böhtan xarakterli hesabatlarına dəstək nümayiş etdirirlər.***





Hətta Orduxan Teymurxan, Tural Sadıqlı, Qurban Məmmədov, Vidadi İsgəndərli və bu kimi erməni qazanının dibini yalayanlar dövlətimizin atributlarına, simvollarına qarşı söyüş və təhqir ritorikasından istifadə edirlər. Bütün bunlar təsdiq edir ki, bu şəxslərin aqressivləşimələri, söyüş ritorikasından yararlanmaları eyni mərkəz tərəfindən koordinasiya olunur. Sistemli fəaliyyət göstərmələri və layihələrinin mətninin eyni məzmunlu olması onların eyni şəbəkənin məxluqları olduqlarını göstərir. Təbii ki, qarşılığında onlar xaricdəki məkrli dairələrdən maliyyə vəsaitləri alırlar. Ancaq bəzən pulun bölünməsi məsləsində bir-birinə güzəştə getmədiklərindən, it kimi boğuşurlar. Məhəmməd Mirzəli ilə Tural Sadıqlı arasında gündəmə gələn qalmaqal buna misal ola bilər. Onlar qrantların düzgün bölünməməsi ilə bağlı bir-birini ittiham edir və bununla da, özləri haqda indiyə kimi cəmiyyətdə formalaşmış "satqınlar" fikrini təsdiq etmiş olurlar.

## Satqın satqını satqınlıqda suçlayır!

M.Mirzəli T.Sadıqlını satqınlıqda ittiham edib: "Sənin qardaşın iki kilo heroinlə şərlənərək, azadlığa buraxılır və sonra da gəlir Almaniyaya. Sənin Bakıdakı fəaliyyətin barədə danışmağa başlasam, təmiz batarsan. Almaniyada etdiklərini isə saxlayıram ikinci yazıya". T.Sadıqlı isə, öz növbəsində, yazdığı statusunda M.Mirzəlini nankorluqda ittiham edib və ona təzyiq olan zaman, dəstək olduğunu bildirib. Bundan sonra, M.Mirzəlinin şikayəti əsasında "YouTube"də "Azad söz" səhifəsindən şikayət edilib və səhifə bağlanıb. ASDP-nin sədri, millət vəkili Araz Əlizadə "Səs" qəzetinə açıqlamasında bildirib ki, sosial şəbəkələrdə təhqiramiz ifadələrlə çıxış edən V.İsgəndərli, Q.Məmmədov, O.Teymirxan, Aslan İsmayılov və bu kimi digərərinə laşlar az verildiyi üçün mənəviyyatsız və əxlaqsız mövqelərini ortaya qoyublar: "Deyə bilərsiniz ki, laş nədir? İtə verilən sıyığa laş deyirlər. Vidadi İsgəndərli də elə bilirdi ki, ömürü boyu prokurorluqda işləyib rüşvət alacaq, A.İsmayılov da elə eyni şeyi düşünürdü. Q.Məmmədov da elə bilirdi ki, böyük xidmətləri olub, ona yağlı əpbək verəcəklər. Yəni bunların hamısı pul davası aparırlar. Bir sözlə, bunları nə Azərbaycan xalqı, nə öz valideynləri, nə də ki, azərbaycanlı uşaqların gələcəyi kimi məsələlərin heç biri maraqlandırmır. "Siyasi mühacirlər"in ataları da, anaları da, arvadları da, uşağı da puldur. Bunlar pula görə hər şeyi satarlar. Əslində, onları ermənilərlə eyniləşdirmək ermənilərin təhqir etmək deməkdir. Çünki onlar ermənidən də pisdirlər. Hər biri zəhərli dişləri çıxarılmış ilandırlar. Dişləyə bilməsələr də, hürmək qabiliyyətinə malikdirlər. Özünü "hüquqşünas" kimi təqdim etməyə çalışan A. İsmayılov çox hiyləgər insandır, əgər ona insan demək mümkünsə. O istəyir ki, onu həbs eləsinlər, bir az yatsın, azadlığa çıxsın və sonra da ona xaricdən desinlər ki, "malades sobaka" və sığınacaq versinlər, o da rədd olub getsin".

## Orduxan Teymurxan və Məhəmməd Mirzəli ifşa olunurlar

Avropadakı "söyüş qrupu"nun üzvləri ifşa olunduqca, Azərbaycan vətəndaşları onların nə qədər yaramaz və simasız olduqlarını bir daha görür. Düzdür, "siyasi mühacirlər" üçün heç bir mənəvi dəyər yoxdur. Onlar üçün başlıca prinsip məskunlaşdıqları ölkələrdə yaşamaq izni almaq və dolanışıq üçün pul əldə etməkdir. Yəni Avropanın müəyyən qurumları da bu kimi tiplərin fəaliyyətini elə- belə dəstəkləmir. Avropalı "siyasi mühacirlər" erməniпərəst mənbələrdən, hətta erməni lobbisinin maliyyə yardımlarımdan da faydalanırlar. Ancaq onlar ifşa olunurlar. Əlbəttə ki, haqq öz yerini tapır. Xalqa hər şey məlum olur. Satqın mühacirlərin əməllərinə münasibət bildirərkən, Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayev bizimlə söhbətində bildirdi ki, öz ölkələrində, yəni Azərbaycanda yaşayarkən, 2 km-lik radiusdan çıxa bilməyənlər, təyyarəni televizorda görənlər indi Avropanın, dünyanın aşağı və yuxarı bitişim nöqtələrini su yolu etməzdilər: "Daha doğrusu, edə bilməzdilər. Demək, normal sponsorları var. Sadəcə öz ağıllarında olan sponsorlar. Ona görə tandem təşkil edə biliblər. Amma bir şeyi anlamırlar: Azərbaycandakı sabit durumu, inkişafı bu yolla sarsıtmaq mümkün olsaydı, bunu onlardan əvvəlki riyakarlar, zaman-zaman millətinə kənardan xor və kor baxanlar da bacarardı. Bacarmayıblarsa, demək, quldurxan kimilər də bacarmayacaq. Sponsorların pulları isə, bu dəfə də havaya sovrulacaq. Hər zaman olduğu kimi. Boşboğazlıq və tərbiyəsizlik indiyə qədər kimsəyə xeyir və başucalığı gətirməyib. Onların kişiliyi, mənliyi olsa, gəlib müxalifətçiliyi burda edərlər, hansısa

nabələd dalanlarda yox. Millət vəkili, onu da bildirib ki, xaricdəki "söyüş qrupu"nun ölkəmiz haqqında iddiaları absurddur: "Onların bütün leksikonu, nitqi, danışığı bir tək söyüşdən yoğrulmayıbmı? Əsas da öndə adını çəkdiyiniz Vidadi İsgəndərli və Orduxan Teymurxan sanki yemək əvəzinə zibil udur, zibil çeynəyir, zibil həzm edirlər. Belə olmasaydı, ağızlarını açan kimi üfunət qoxmazdı. Adamlar bütün dəyərlərini itiriblər. Onu da, nəzərə almırlar ki, paylaşdığımız videoya öz nəslimizdən olan xanımlar, gəlinlər, analar və bacılar da baxa bilər. Yox! Nəzərə almırlar. Çünki bütün dəyərlər itib. Daxillərində mənəvi xaos yaşanır. Bu səbəbdən, batdıqca batırlar".

## Satqın və xəyanətkarın vətəni olmur

Avropada kök salan və "azrbaycanlı" adına iddia edən O.Teymurxan, V.İsgəndərli, Q.Məmmədov, M.Mirzəli, T.Sadıqlı və digərləri öz iyrənc fəaliyyətləri ilə şərəfsizlik simvoluna çevrilirlər. Artıq onlardan istifadə edən bəzi dairələrdə düşünmək məcburiyyətində qalıblar. Yəni xarici məkrli dairələr "siyasi mühacirlər"dən istifadənin onlara utanc gətirdiyini dərk etdiklərindən, mühacirlərdən imtina etmək məcburiyyətində qalıblar. Məhz buna görə də, başıboş O.Teymurxanla, dəli olduğu sübuta yetirilən V.İsgəndərlinin başları həlli mümükün olmayan dərdə düşüb. Belə ki, Amsterdam və Paris məhkəmələri onların vətəndaşlıqdan məhrum edilərək, üçüncü bir ölkəyə deportasiya olunması məsələsi ətrafında müzakirələr qurmağa hazırlaşır. Daha doğrusu, artıq Parisin 7-ci Döngə Prokurorluğu V.İsgəndərlinin, Amsterdamın polis birliyi O.Teymurxanın vətəndaşlıqdan məhrum edilmələri ilə bağlı Məhkəməyə mürarciət üçün müvafiq sənədləri hazırlayırlar. Yəqin ki, yaxın vaxtlarda hər iki satqının məsələsinə baxılacaq. Əgər onların haqqında ədalətli qərar çıxarılaraq, vətəndaşlıqdan məhrum olunsalar, o zaman Azərbaycana deportasiya oluna bilərlər. Bu halda, satqınları hansı cəza gözlədiyini təsəvvür etmək çətin deyil.

**İ.ƏLİYEV**

# "Bakcell"dən eşitmə məhdudiyyətli gənclər arasında ənənəvi futzal turnirinə dəstək



Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti eşitmə məhdudiyyətli gənclər arasında keçirilən futzal üzrə ənənəvi "Yaz turniri"nə növbəti dəfə dəstək göstərib.

AFFA-nın, Sahə Futbol Federasiyaları İctimai Birliyinin və Bakcell şirkətinin dəstəyi, Əlillər Futbolu Federasiyasının təşkilatçılığı ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin idman sarayında keçirilmiş futzal turnirində "Bakı", "Azəri", "Zirvə", "Şimşək" və "Ümid" komandaları mübarizə aparıb. Turnirin nəticəsi olaraq, "Azəri" komandası birinci, "Şimşək" komandası ikinci, "Zirvə" komandası isə üçüncü yeri tutub. "Azəri" komandasının üzvü Rabil Şabanov ən yaxşı qapıçı, "Şimşək"dən Ümid İbrahimov isə ən yaxşı oyunçu adına layiq görülüb. Turnirin ən məhsuldar futbolçusu "Azəri" komandasının üzvü Rəvan Muxtarlı olub.

Özünün genişmiqyaslı Korporativ Sosial Məsuliyyət proqramı vasitəsilə Bakcell şirkəti Azərbaycanda gənclər və idmanın inkişafına dəstək göstərməyə və xüsusi qayğıya ehtiyacı olan uşaq və gənclərə yönəlmiş mühüm layihələri həyata keçirməyə davam edəcək.

# Dövlətin insan həyatını özbaşına manipulyasiya cəhdlərinə qarşı

***Dövlətin vəzifəsi, insan həyatını özbaşına manipulyasiya cəhdlərindən müdafiə etmək məqsədilə, süni reproduksiya metodlarının tətbiqində insan hüquqlarının reallaşmasının hüquqi rejiminin yaradılmasından ibarətdir. Çünki göstərilən sahədə hüquqi tənzimləmə mexanizmlərinin çatışmaması yaranan hüquq münasibətləri subyektlərinin hüquqlarının və qanuni maraqlarının müdfiəsinə mənfi təsir göstərir.***

Bu paraqraf çərçivəsində tərəfimizdən sonsuzluğun aradan qaldırılması (süni mayalandırma, rüşeymin implantasiyası, surroqat analıq hüququ) metodlarının tətbiqi üzrə insan hüquqlarının təsbit olunmasında əcnəbi təcrübənin müqayisəli-hüquqi təhlili aparılmışdır.

Aytən Mustafayevanın fikrincə, bu baxımdan, ən proqressiv dövlət İsveçrədir. Belə ki, Georq Qomdovskinin qeyd etdiyi kimi, İsveçrə Konfederasiyası Konstitusiyasının 119-cu maddəsində reproduktiv təbabətin və insanın gen mühəndisliyinin tətbiqi məsələləri ayrılıqda tənzimlənmişdir. Bu maddəyə uyğun olaraq, tibbin dəstəklədiyi reproduksiya prosedurları, o halda tətbiq edilə bilər ki, sonsuzluğun aradan qaldırılması başqa yolla mümkün olmasın. İnsanın toxum hüceyrələrinin qadın bədənindən kənarda mayalandırılması da, yalnız qanunla müəyyənləşdirilmiş şəraitlərdə həyata keçirilir. Bu zaman qadın bədənindən kənarda ona dərhal implantasiya edilə bilən qədər insanın toxum hüceyrələri rüşeym halına gətirilə bilər. Rüşeymlərin bağışlanmasının və surroqat analığın bütün növlərinin qadağan olunması ayrıca təsbit edilir. İnsanın döl materialı ilə alış-veriş və rüşeymdən törəyənlərə hər hansı ticarət də qadağandır. Beləliklə, göstərilən ölkədə süni reproduksiya metodlarının tətbiq edilməsi hüququ əsas insan hüquqlarının tərkib hissədir və konstitusiya müddəaları ilə qorunur. Son nailiyyətlər nəticəsində, bu sahədə belə bir mövqe daha aktual və haqlı görünür. Ənənəvi olaraq, reproduktiv seçim azadlığı hüququnu qadınların uşaq istəmək, yaxud istəməmək hüququ, hamiləliyin süni yolla dayandırılması (abort) hüququ və arzuolunmaz hamiləliyin qarşısının alınması hüququ ilə əlaqələndirirlər. Lakin fikrimizcə, reproduktiv azadlıq anlayışı daha genişdir, çünki o, azadlıq, şəxsi toxunulmazlıq, şəxsiyyətin ləyaqətinin tanınması və bərabərlik prinsipi kimi konstitusiya hüquqlarının elementi qismində çıxış edir. Azadlıq və şəxsi toxunulmazlıq həm bioloji, həm də sosial həyat sahələrini əhatə etməklə, yetərincə geniş təfsir edilir.

Beləliklə, A.Mustafayeva belə hesab edir ki, azadlıq və şəxsi toxunulmazlıq hüququna şəxsi sahədə reallaşdırılan konkret səlahiyyətlər kompleksi daxildir. Belə ki, qadınlar və kişilər reproduktiv davranışın sərbəst fəaliyyət göstərən subyektləridir və icbari demoqrafik siyasətin və ailə planlaşdırılmasının aparılması üçün obyekt, yaxud vasitə ola bilməzlər. Onlar arzuladıqları uşaqların sayı və onların doğulmaları arasındakı vaxt məsələsini sərbəst və məsuliyyətlə həll etmək imkanına malik olmalıdırlar.

L.Qorovun fikrincə, hüquqi müdafiə obyekti kimi reproduktiv seçim azadlığının özünəməxsusluğu, ondan ibarətdir ki, bu reproduktiv hüquq bütün konstitusiya hüquq və azadlıqları sistemi ilə müdafiə olunur. Onun sözlərinə əsasən, hər şeydən öncə, sərbəst reproduktiv seçim hüququ yaşamaq hüququnun reallaşması formalarından biridir. Çünki reproduktiv hüquqların təyinatı həyatın nəsillikcə davam etdirilməsindən ibarətdir. Ona görə də, reproduktiv hüquqların hüququ xüsusiyyətlərinin tədqiq edilməsi, ilk növbədə, bu hüquqların məzmununun genişləndirilməsinə yönəlmişdir.

Bununla belə, reproduktiv seçim azadlığı hüququnun ayrı-ayrı elementlərinin yaşamaq hüququ ilə qarşılıqlı əlaqədə olan və onun müdafiəsini təmin edən insanın digər konstitusiya hüquqlarına birbaşa aidiyyəti var. Bu məsələ Azərbaycan Respublikası üçün də aktualdır. Belə ki, azad reproduktiv seçim hüququnun elementləri Azərbaycan Respublikasının aşağıdakı konstitusiya-hüquqi normaları ilə təmin edilir:

- nikahda və ya nikahdankənar uşağın doğulmasına, yaxud doğulmasından imtina edilməsinə münasibətdə, sərbəst qərar qəbul etmək hüququ şəxsi azadlıq hüququ, şəxsi həyatın toxunulmazlığı hüququ ilə qarşılıqlı əlaqədədir və Azərbaycan Respublikasının Konstitusiyası ilə təmin edilir;
- kişilərin və qadınların reproduktiv sağlamlığının saxlanmasına yönəlmiş ailə planlaşdırılması hüququ sağlamlığın qorunması və tibbi yardım hüququ ilə təmin edilir (Azərbaycan Respublikasının Konstitusiyası).

Bu paraqraf çərçivəsində tərəfimizdən, həmçinin, reproduktiv funksiyanın gerçəkləşməsi zamanı qalmağa, hamiləliyi dayandırmağa məcbur etmənin və məcburi tibb sterilləşmənin tətbiqinin də qadağan olunması daxil olmaqla, qadınların və kişilərin heç bir diskriminasiya, məcburiyyət və zorakılıq olmadan nəsilartırma məsələsinə münasibətdə qərar qəbul etmək hüququ şəxsi toxunulmazlıq hüququ üzrə konstitusiya hüququ ilə təmin edilir. Nəticə. Yekunda əhalinin və ayrılıqda hər bir insanın reproduktiv sağlamlığının insan həyatının xüsusi sahəsi olduğu barədə ümumi rəyə gəlinmişdir. Reproduktiv sağlamlığın qorunması və vətəndaşlar tərəfindən repoduktiv reallaşması üçün şərait yaradılması, şübhəsiz ki, sosial dövlət olaraq, Azərbaycan Respublikasının fəaliyyətinin əsas istiqamətlərinə daxil olmalıdır. Bununla əlaqədar olaraq, vətəndaşların reproduktiv funksiyalarını reallaşdırmaq imkanlarını təmin edən səmərəli hüquqi təminatların yaradılması, xüsusilə, əhəmiyyətlidir.

Beynəlxalq və konstitusiya yaşamaq hüququ ilə əsas reproduktiv hüquqlardan biri - mərkəzi elementi qadınların hamiləliyi süni şəkildə dayandırması hüququ olan reproduktiv seçim azadlığı hüququ arasındakı qarşılıqlı əlaqə tədqiq edilmişdir. Ən əhəmiyyətli problemlərdən biri yaşamaq hüququnun meydana gəlməsi məqamı və hamiləliyin süni yolla dayandırılması zamanı bu hüququn müdafiəsidir. Biz uşağın, doğulmamışdan əvvəl də, hüquqi müdafiəyə ehtiyacı olduğu fikrini dəstəkləyirik. Bununla bağlı olaraq, rüşeymin bütün əsas orqanlarının formalaşmağa başladığı andan, yəni mayalanmanın 12-ci həftəsindən etibarən, insan varlığı hesab edilə bilməsi barədə nəzəriyyəni daha çox həqiqətə uyğun saymaq olar. Bu səbəbdən də, hamiləliyin dayandırılması üçün 12-ci həftədən sonra abort etməyə imkan verən sosial və tibbi göstərişlər gələcək uşağın həyatına qəsddir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

insan hüquqlarının pozulması hallarında məhkəmə müdafiəsi üsulları da nəzərdən keçirilmişdir. İnsanın reproduktiv hüquqlarının qorunması, aşağıdakı konstitusiya-hüquqi normalarla təmin edilir: ərarvadın özlərinə və övladlarına ləyaqətli həyat təmin etmək hüququ dövlətin üzərinə şəxsiyyətin ləyaqətinin qorunmas üzrə tədbirlər görmək öhdəliyi qoyan Azərbaycan Respublikasının Konstitusiyası ilə təmin edilir; insanın reproduktiv funksiyasının reallaşdırılması formalarının sərbəst seçilməsi huququ şəxsi həyatın toxunulmazlığı üzrə konstutusiya hüququ ilə qorunur (Azərbaycan Respublikasının Konstitusiyası); Reproduktiv forma, ondan asılı olmayaraq (məsələn, köməkçi reproduktiv texnologiyaların növlərindən birindən istifadə ilə), uşağın doğulmasının şərait və səbəblərini gizli saxlamaq hüququ hər bir insanın şəxsi ailə qorunmasını təmin edən Azərbaycan Respublikasının Konstitusiyası ilə müdafiə edilir. Eləcə də, konstitusiyada şəxslərin razılığı olmadan onların şəxsi həyatı haqqında məlumatların toplanması, saxlanması, istifadəsi və yayılması qadağan edilir; Qadınların hamiləliyin süni yolla dayandırılması...

Yuxarıda qeyd olunanlara əsasən, belə bir nəticəyə gəlirik ki, hamiləliyin 12 həftədən sonra dayandırılması yalnız müstəsna hallarda həyata keçirilir. Hamiləliyin süni yolla dayandırılması üçün tibbi göstərişlər çevrəsi, müddətdən asılı olmayaraq, dəqiq müəyyənləşdirilməli, müfəssəl xarakter daşımalı və tibb elminin inkişafı nəzərə alınmaqla, müntəzəm dəyişdirilməlidir. A.Mustafayeva yazır: "Diqqəte çatdıraq ki, tibbi sterilləşmə problemləri hamiləliyin dayandırılmasının hüquqi nizamlanması ilə sıx bağlıdır. Çünki bu tibbi müdaxilə insanı cinsiyyət funksiyasından məhrum etməyə yönəldilmişdir və hazırda, əsasən, ailənin planlaşdırılması metodlarından biri kimi nəzərdən keçirilir. Tibbi müdaxilənin məcburi sterilləşmə kimi məxsusi növünün aparılmasının qanuniliyi mərkəzi element olaraq qalır.

Biz belə bir fikrə gəlirik ki, vətəndaşların məcburi tibbi sterilləşməsinin tətbiq edilməsini (insanı nəsilartırma qabiliyyətindən məhrum etmək məqsədilə xüsusi müdaxilə və ya kontrasepsiya üsulu kimi) şəxsi toxunulmazlıq hüququnun, konstitusiya üzrə şəxsiyyətin ləyaqət hüququnun pozulması kimi dəyərləndirmək olar. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyası və beynəlxalq-hüquqi akt normalarının təhlili əsasında, söyləyə bilərik ki, heç bir şərait, o cümlədən, ümumi anlamda, şəxsiyyətin mənfi qiymətləndirilməsi, məsələn, onun psixi xəstəliyi, ləyaqətin alçaldılması üçün bəhanə ola bilməz. Bununla əlaqədar olaraq, insan və vətəndaşların hüquq və azadlıqlarına tam riayət edilməsi məqsədilə vətəndaşların tibbi sterilləşməyə könüllü razılığı olmadıqda, müdaxilənin bu növü heç bir şəraitdə keçirilə bilməz." K.L.Yerofeyeva genomun məxfiliyi hüququnun, hüquqi müdafiəsinin zəruri olduğu üçün, bu aspekti aydın hesab edir. Belə ki, əks-halda, insanın şəxsi həyatına müdaxilə baş verə bilər. Məsələn, insanın genom portreti öz sahibinin bütün sirlərini aça, onun meyilləri, xəstəlikləri və çox şeylər haqqında danışa bilər ki, bu da ayrılmaz konstitusiya hüququ olan şəxsi həyatın toxunulmazlığı, şəxsi və ailə sirrinin qorunması hüququna ziddir.

Biz K.L.Yerofeyevanın terapevtik klonlaşdırmanı, məsələn, orqanizmin özünəməxsus tikinti materialı olan gövdə hüceyrələrinin yetişdirilməsini tənzimləyən daxili qanunvericiliyin inkişafı ilə bağlı fikirlərini dəstəkləyirik. Çünki bu cür tədqiqatların nəticələrindən istifadə olunması çox sayda xəstə insanın həyatının qorunmasına xidmət edir. Bununla belə, reproduktiv klonlaşdırmaya (laboratoriya şəraitində hər hansı varlığın genetik cəhətdən dəqiq surətinin süni şəkildə yaradılması) qoyulan qadağa da, əsaslandırılmış sayılmalıdır. Bu halda, insan özünün təbiətinə görə, cavabdeh olmadığı mövcudluq sahəsinə daxil olur. Bu isə, gözlənilməz nəticələrin yaranmasına gətirib çıxara bilər.

Beləliklə, təsdiq edə bilərik ki, tibb elminin inkişafı nəticəsində, bəşəriyyətin qarşısında açılan perspektivlər çox genişdir. Lakin insanın sonsuzluğu ilə mübarizənin yeni metodlarının köməyi sayəsində doğulanların əsas şəxsi hüquqlarının müdafiəsi problemi də əhəmiyyətlidir.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***



# YAP Şamaxı rayon təşkilatı GB-nin V hesabat konfransı keçirilib

***Şamaxı rayon Mədəniyyət Sarayında Yeni Azərbaycan Partiyası Şamaxı rayon təşkilatı gənclər birliyinin V hesabat - seçki konfransı keçirilib. Konfransda 85 ərazi təşkilatından 300 nəfər iştirak edib. Konfrans iştirakçıları əvvəlcə Heydər Əliyev parkında Ulu Öndərin abidəsi önünə gül dəstələri düzərək, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad ediblər. Sonra Dövlət Himni səsləndirilib.***

Konfransda YAP Şamaxı rayon təşkilatının sədri Bəxtiyar Abbasov gənclər birliyinin V hesabat - seçki konfransını açaraq, qeyd edib ki, bu gün 7790 nəfər üzvünün birləşdiyi YAP Şamaxı rayon təşkilatı gənclər birliyinin konfransına toplaşıblar: "Hazırda rayon təşkilatında 3767 nəfərini gənclər təşkil edir. Bunlardan 2042 nəfəri qadın, 1255 nəfəri ali, 933 nəfəri orta ixtisas, 1519 nəfəri orta təhsilli olmaqla, 742 nəfəri təhsil, 201 nəfəri mədəniyyət, 634 nəfəri səhiyyə, 135 nəfəri idarəetmə orqanlarında və 856 nəfəri isə digər idarə və müəssisələrdə işləyirlər."

Sonra YAP Şamaxı rayon təşkilatı gənclər birliyinin sədri Nüranə Məmmədova hesabat məruzəsi ilə çıxış edib.

Məruzə ətrafında ADPU Şamaxı filialının tələbəsi Sevda Məmmədli, Şamaxı Dövlət Regional Kollecinin müəllimi Bəşir Lazımov, ADPU Şamaxı filialının tələbəsi Məhərrəm Məhərrəmli çıxışlarında qeyd ediblər ki, müasir tariximizin bir qərinədən artıq mərhələsi müdrik dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır: "Azərbaycan dövlətçiliyinin müasir tarixinə öz adını əbədi həkk etdirmiş bu nadir şəxsiyyətin, siyasi xadimin ölkəmizə rəhbərlik etdiyi illər intibah, milli tərəqqi, milli oyanış, nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi qəbul edilir".

Sonra konfransın qətnaməsi qəbul edilib. 17 nəfərdən ibarət YAP Şamaxı rayon təşkilatının gənclər birliyinin şura üzvü və 11 nəfərdən ibarət idarə heyəti seçilib. Nüranə Məmmədova YAP Şamaxı rayon təşkilatı gənclər birliyinin sədri, Bəşir Lazımov və Simral Mahmudov sədr müavinləri seçildilər. 2 nəfər YAP Gənclər Birliyinin Ümumrespublika Konfransına nümayəndə seçilib.

Konfransın işində iştirak edən YAP-ın Siyasi Şurasının üzvləri - Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, millət vəkili , parlamentin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin sədri Əli Hüseynov, YAP Gənclər Birliyinin sədri Seymur Orucov çıxış edərək, Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət-gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də idman həyatında gənclərin uğurlarından danışıblar.

***Rövşən RƏSULOV***

# YAP Xocavənd rayon təşkilatı gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib

***Yeni Azərbaycan Partiyası Xocavənd rayon təşkilatı gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib. Konfrans iştirakçıları əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini ehtiramla yad ediblər.***



Konfransı giriş sözü ilə açan YAP Xocavənd rayon təşkilatının sədri Azər Süleymanov respublikamızda Prezident İlham Əliyevin rəhbərliyi ilə əhalinin sosial təminatının gücləndirilməsi istiqamətində həyata keçirilən mühüm tədbirlər, eyni zamanda, dövlət-gənclər siyasəti haqqında məlumat verib. O, respublikamızda gənclərin hərtərəfli inkişafı üçün geniş imkanların olduğunu vurğulayıb.

Konfransda YAP Xocavənd rayon təşkilatı gənclər birliyinin sədri Vüsal Hüseynovun hesabat məruzəsi dinlənilib. O, ölkəmizdə həyata keçirilən dövlət-gənclər siyasətinə uyğun olaraq, şəhərin ictimai-siyasi həyatında gənclərin fəallıqları ilə seçildiyini bildirib.

Konfransda Xocavənd rayon icra hakimiyyətinin başçısı Eyvaz Hüseynov, fəal gənclərdən Anar İbrahimov, Ləman Quliyeva, Gültəkin Qaraşova və başqaları çıxış edərək, YAP-ın keçdiyi uğurlu inkişaf yolundan, Ulu Öndər Heydər Əliyevin siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində, qazanılan nailiyyətlərdən danışıblar. Konfransda təşkilati məsələlərə də baxılıb. Hüseynov Vüsal Cavay oğlu YAP Xocavənd rayon təşkilatı gənclər birliyinin sədri, eyni zamanda, 9 nəfərdən ibarət şuranın üzvləri, 7 nəfərdən ibarət idarə heyəti seçilib. Tədbirdə, həmçinin, YAP Gənclər Birliyinin növbəti konfransına nümayəndələr seçilib.

Konfransda partiya sıralarına daxil olan 11 nəfərə üzvlük vəsiqələr və qiymətli hədiyyələr təqdim edilib.

Sonda konfrans iştirakçıları adından Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə müraciət qəbul edilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yeni Azərbaycan Partiyası Oğuz rayon təşkilatı gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib



Dünən Yeni Azərbaycan Partiyası Oğuz rayon təşkilatı gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib. YAP Oğuz rayon təşkilatının üzvləri konfransdan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini böyük ehtiramla yad ediblər. Konfransın açılışında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransı giriş sözü ilə açan YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlarından bəhs edib. O, həmçinin, həyata keçirilən dövlət-gənclər siyasətindən də danışıb.

Konfransda YAP Oğuz rayon təşkilatı gənclər birliyinin sədri Mehman Ramazanov hesabat məruzəsi ilə çıxış edərək hesabat dövrü ərzində görülən işlər haqqında ətraflı məlumat verib.

Oğuz rayon icra hakimiyyətinin başçısının müavini Yusif Naxçıvanski, fəal gənclərdən Elşən Alcanov, Cavid Həmidov, Sənan Ramazanov və digərləri çıxış edərək ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin gənclərə diqqət və qayğısından bəhs ediblər. Natiqlər ölkəmizdə ictimai-siyasi sabitlik və iqtisadi inkişaf sahəsində əldə olunmuş nailiyyətlərin, məhz ölkə rəhbəri İlham Əliyevin səmərəli və yorulmaz fəaliyyəti sayəsində mümkün olduğunu diqqətə çatdırıblar.

Sonra təşkilati məsələlərə baxılıb. Elşən Alcanov YAP Oğuz rayon təşkilatı gənclər birliyinin sədri seçilib. Eyni zamanda, 21 nəfərdən ibarət şura üzvü, 7 nəfərdən ibarət idarə heyəti, YAP Gənclər Birliyinin Ümumrespublika Konfransına 2 nəfər nümayəndə seçilib. Sonda konfrans iştirakçıları tərəfindən Prezident İlham Əliyevə müraciət qəbul edilib.

***ZÜMRÜD BAYRAMOVA***

**ELAN**

**Binəqədi rayonu M.Ə.Rəsulzadə qəsəbəsi Çexov küçəsi, 10-11 ünvanında yaşayan Hüseynova Viktoriya Vladimir qızının adına verilmiş ÇIXARIŞ itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**